# NOVRUZ BAYRAMI: ƏVVƏL VƏ İNDİ

Novruzla bağlı adətlər şəhərlərdə unudulmaq üzrədir. Keçmiş ənənələrə bağlılıq itir, dünya qloballaşır və Azərbaycan insanı da buna ayaq uydurmağa çalışır.

Novruz - baharın gəlişini, təbiətin oyanışını, yeni ilin başlanğıcını simvolizə edən ən qədim bayramlardan biridir. Həm də digərlərindən seçilən, insana ümid, motivasiya verən, gələcəyə olan inamını artıran, milli kimliyini xatırladan ən önəmli bayramlardandır. Lakin, xüsusilə şəhərləşmə prosesi Novruzun bəzi adətlərini unutdurur.

Folklorşünas alim Elxan Yurdoğlu deyir ki, Novruz bayramı ilə bağlı olan adətlər kənd yerlərində mümkün dərəcədə qorunub saxlanılır: “Unudulma səbəblərindən biri insanların həddən artıq praqmatik olmasıdır. Şəhər həyatı və müasir texnologiyalar insanların ənənəvi bayramları qeyd etməsinə təsir edir”.

SƏHİFƏ 6-da




‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

20 MART CÜMƏ AXŞAMI 2025 | № 11 (4212)

Qiyməti - 60 qəpik
www.kaspi.az



## MƏRKƏZİ ASİYA ÜÇÜN TARİXİ RAZILAŞMA

Mərkəzi Asiya respublikaları - Qırğızıstan və Tacikistan çoxdandır davam edən fikir ayrılıqlarına son qoyaraq, tarixi sazişə imza atıblar. İki ölkə arasındakı sərhədlər dəqiqləşdirilib, su bölgüsü ilə bağlı razılıq əldə olunub.

SƏHİFƏ 5-də



## MAŞIN BAZARINDA MÖVQE DƏYİŞİKLİYİ

Maşın bazarında ənənəvi tendensiya dəyişir. Gürcüstandan gətirilən “ikinci əl” maşınlar hakim mövqelərini sürətli şəkildə itirirlər. Ekspertlər bazardakı mövqe dəyişikliyinin mənfi və müsbət tərəflərini açıqlayırlar.

SƏHİFƏ 13-də



## 32 İLDƏN SONRA EŞİDİLƏN “VAĞZALI” SƏDASI

Yusif Ələkbərzadə: “Qırxdan çox Xocalı sakini filmin sayəsində Xocalıya gəldi. Onların yaşadıqları hissləri filmdə vermişik: biri ağlayır, biri gülməyə başlayır... Bizim bəygəlinin qız övladı Bakıda doğulub. O, ilk dəfə idi Xocalını görürdü”.

SƏHİFƏ 8-9-da



# BAHAR OVQATI, NOVRUZ COŞQUSU

Bu gün Azərbaycanda Novruz bayramı qeyd edilir. Bu il ilk dəfə olaraq, işğaldan azad edildikdən sonra Xankəndi və Xocalıda da Novruza hazırlıq işləri aparılıb.

### PREZİDENT İLHAM ƏLİYEV XALQI TƏBRİK EDİB

Prezident İlham Əliyev xalqı bayram münasibəti ilə təbrik edib. Bildirib ki, Novruz bayramı müdrik Azərbaycan xalqının zəngin həyat fəlsəfəsini və nikbin dünyagörüşünü günümüzədək yaşadaraq, milli-mənəvi varisliyin bariz nümunəsinə çevrilmişdir.

### XANKƏNDİ VƏ XOCALIDA XÜSUSİ HAZIRLIQ

Bu il ilk dəfə olaraq, işğaldan azad edildikdən sonra Xankəndi və Xocalıda Novruza hazırlıq işləri aparılıb. Hazırlıqla bağlı görüntüləri Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti yayıb.

SƏHİFƏ 2-də

Ölkə daxilində xüsusi aktivlik gözlənilir

## BAYRAM TƏTİLİNDƏ HARA GETMƏLİ?



Bu il Novruz tətili günlərində Qəbələ, Şəki, Quba, Qusar, Lənkəran və Gəncə istiqamətlərinə maraq var. Xüsusilə Gəncə istiqamətində sürət qatarı olduğu üçün daha çox səyahət gözlənilir. Bakı sakinləri üçün ən yaxın ərazilər isə paytaxtdan iki-üç saatlıq məsafədə yerləşən ərazilərdir.

SƏHİFƏ 7-də



## KAĞIZ SƏNƏD ERASI BAŞA ÇATIR

Hazırda yeni sistem vasitəsilə hər ay bir milyondan çox kağız sənədin istifadəsinə qənaət edilir ki, bu da ildə təxminən 2000-dən çox ağacın kəsilməsinin qarşısını alır.

SƏHİFƏ 12-də



## YUMURTAMIZIN ÜSTÜNDƏ DAVADIR

Azərbaycan artıq ABŞ-yə yumurta ixracına başlayıb. Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Qətər, Küveyt də ixrac siyahımızdadır. Belçika və İsrail isə yaxın vaxtlarda bu siyahıya əlavə ediləcəklər.

SƏHİFƏ 11-də



## İKİ OKEANIN YUDUĞU SAHİLLƏRDƏKİ NAĞIL

Bali geniş düyü terrasları, kokos, xurma sahələri və kofe plantasiyaları ilə məşhurdur. Səyahət həvəskarları Bali nağılını öz gözləri ilə görmək üçün uzun məsafələri qət etməkdən çəkinmirlər.

SƏHİFƏ 15-də



## Sahibə Qafarovaya “Şərəf” ordeni təqdim edilib

Prezident İlham Əliyev martın 19-da Milli Məclisin sədri Sahibə Qafarovanı qəbul edib və ona “Şərəf” ordenini təqdim edib. Sahibə Qafarovanı salamlayan Prezident İlham Əliyev deyib: “Hörmətli Sahibə xanım, sizi yubileyiniz münasibətilə təbrik edirəm. Sizə yeni uğurlar, cansağlığı arzulayıram. Siz uzun illərdir Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynayırsınız. Milli Məclisin deputatı kimi 15 il və Milli Məclisin sədri kimi 5 ildir uğurlu fəaliyyət göstərirsiniz. Mən sizin fəaliyyətinizi yüksək qiymətləndirirəm, həm seçicilərlə daim təmasda olursunuz, eyni zamanda, ölkəmizin milli maraqlarını beynəlxalq arenada müdafiə edirsiniz və öz işinizlə ölkəmizin ümumi inkişafına dəyərli töhfə verirsiniz. Bu yubiley günündə mənim Sərəncamımla siz “Şərəf” ordeni ilə təltif olunmusunuz. İcazə verin, bu ordeni sizə təqdim edim”.

Dövlət başçısına təşəkkürünü bildirən S.Qafarova deyib ki, bu yüksək təltifi Azərbaycan Respublikası Milli Məclisinin işinin qiymətləndirilməsi kimi dəyərləndirir: “Əmin etmək istəyirəm, möhtərəm cənab Prezident, həm Milli Məclisin bir üzvü kimi, həm Milli Məclisin sədri kimi, ümumiyyətlə, Milli Məclis adından demək istərdim ki, bizim hər birimiz Sizin apardığınız siyasətə həmişə parlament səviyyəsində dəstək olacağıq. Xalqın təmsilçiləri olaraq bütün Milli Məclis xalqın rifahı üçün parlament səviyyəsində əlindən gələni edəcək. Mənim haqqımda dediyiniz sözlərə görə Sizə çox minnətdaram”.

# BAHAR OVQATI, NOVRUZ COŞQUSU

Azərbaycanda Novruz bayramı qeyd edilir. Bu il ilk dəfə olaraq, işğaldan azad edildikdən sonra Xankəndi və Xocalıda da Novruza hazırlıq işləri aparılıb.



**Foto:** Tapdıq Abdullayev - Global Photostock

AZAD ƏLİYEV

Bu gün Azərbaycanda Novruz bayramı qeyd edilir. Prezident İlham Əliyev də Azərbaycan xalqını bayram münasibəti ilə təbrik edib. Dövlət başçısı bildirib ki, ulu əcdadlarımızın müqəddəs yadigarı olan Novruz bayramı müdrik Azərbaycan xalqının zəngin həyat fəlsəfəsini və nikbin dünyagörüşünü günümüzədək yaşadaraq milli-mənəvi varisliyin bariz nümunəsinə çevrilmişdir: “Bu böyük el bayramı təbiətə məhəbbətin, ruhi paklıq və gözəlliyin, mərhəmət və xeyirxahlığın yüksək təntənəsidir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı olduğu üçün o, dünya mədəni irsinin qiymətli nümunələri sırasında layiqli yer tutur.

Novruz bayramı milli təfəkkürümüzün ayrılmaz parçası kimi ənənəvi dəyərlərimizin formalaşmasında müstəsna rol oynamışdır. Ölkəmizi sivilizasiyaların qovuşuğundakı qədim mərkəzlərdən biri olaraq tanıtmış misilsiz mənəviyyat xəzinəmizdə Novruz mərasimləri xüsusi mövqeyə malikdir. Baharın gəlişinin əsrlərin yaddaşında iz qoymuş adətlərə uyğun şəkildə bu gün də rəngarəng el şənlikləri ilə Vətənimizin hər bir guşəsində geniş qeyd edilməsi tarixi-mədəni irsə bağlılığımızın parlaq ifadəsidir.



Cəmiyyətdə ünsiyyəti, qarşılıqlı səmimi münasibətləri dərinləşdirən və bizi azərbaycançılıq məfkurəsi işığında sıx birləşdirən Novruz bayramı milli həmrəyliyimizi getdikcə daha da möhkəmləndirir. Əminəm ki, bu həmrəylik duyğusu yaz fəslinin yeniləşdirici ab-havası və beşinci ildönümünə hazırlaşdığımız şanlı Zəfərin verdiyi mənəvi güclə vəhdətdə ümumxalq əhəmiyyətli bütün işlərimizin lazımi səviyyədə icrasını təmin edəcəkdir. Bayram sevincini işğaldan azad olunmuş əzəli torpaqlarımızda yaşayan soydaşlarımız əbədi qayıtdıqları öz dədə-baba yurdlarında aydın səma altında əmin-amanlıq içində daim şövqlə qurub yaradacaqlar.

Üzümüzə gələn Novruz bayramının hər evə, hər ocağa firavanlıq, səadət və bol ruzi-bərəkət gətirməsini diləyirəm.

Bayramınız mübarək olsun!”

## XANKƏNDİ VƏ XOCALIDA XÜSUSİ HAZIRLIQ

Bu il ilk dəfə olaraq, işğaldan azad edildikdən sonra Xankəndi və Xocalıda Novruza hazırlıq işləri aparılıb. Hazırlıqla bağlı görüntüləri Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti yayıb. Bildirilib ki, Xankəndi şəhərinin mərkəzində, Zəfər meydanında Novruza hazırlıq işləri aparılır. Mərkəzi meydanda səməni qurulub, həmçinin Zəfər meydanında iri bayram tonqalı quraşdırılıb və konsert proqramı üçün xüsusi konstruksiyalar quraşdırılıb.

Xocalı şəhəri və Ballıca kəndində də Novruz bayramı atributları, milli ornamentlərlə bəzədilmiş səməni quraşdırılıb.

### FHN İŞ REJİMİNİ DƏYİŞİR

Fövqəladə Hallar Nazirliyi Novruz və Ramazan bayramları ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışacaq. Bununla bağlı müvafiq əmr imzalanıb. Əmrə əsasən, Novruz və Ramazan bayramları ilə əlaqədar qeyri-iş günlərində bayram mərasimlərinin təşkil olunduğu və insanların kütləvi toplaşdığı məkanlarda baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ şəkildə aradan qaldırılması işinin təşkil edilməsi, vətəndaşların həyat və fəaliyyətinin təhlükəsizliyinin daha etibarlı təmin olunması məqsədilə nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına müvafiq tapşırıqlar verilib.

## METROPOLİTENİN HƏRƏKƏT QRAFİKİNDƏ DƏYİŞİKLİK

“Bakı metropoliteni” QSC də Novruz bayramında gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. Bayram günləri üzrə metropolitenin hərəkət qrafikində dəyişiklik olunub. Martın 20-21-də saat 07:00-dan 21:00-dək “Əhmədli - 28 May” istiqamətində qatarlar 2,5 dəqiqəlik intervalla hərəkət edəcək. Ayın 22-dən 31-dək, Ramazan bayramı günləri də daxil olmaqla, həmin sahədə interval 3 dəqiqə təşkil edəcək. Xətlərin birləşdiyi “28 May” stansiyasından sonra - “İçərişəhər” və “Dərnəgül” stansiyaları istiqamətində qatarların hərəkəti qeyd edilən tarixlər üzrə müəyyən edilmiş intervaldan iki dəfə artıq olacaq.

### BAKIDA 130 TƏCİLİ TİBBİ YARDIM BRİQADASI

Novruz bayramı ilə əlaqədar qeyri-iş günlərində Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinin stansiyaları da gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. Bu barədə TƏBİB məlumat yayıb. Bildirilib ki, qeyri-iş günlərində xidməti nəzarətdə saxlamaq üçün məsul şəxslərdən ibarət növbətçilik yaradılacaq, həkim briqadalarının sayı xidməti ştata uyğun təşkil olunacaq. “Novruz bayramı ilə əlaqədar həm xarici ölkələrdən, həm də bölgələrdən xüsusilə Bakı şəhərinə gələn qonaqların sayında artım müşahidə olunduğu üçün təchizat və təminat buna uyğun təşkil olunacaq. Bakı şəhərində 130 təcili tibbi yardım briqadası, 63 region üzrə isə 270-ə yaxın təcili tibbi yardım briqadası xidmətə hazır vəziyyətə gətirilib.

Bundan əlavə, bayram günləri ərzində TƏBİB-in tabeli tibb müəssisələrinin stasionar şöbələri və təcili tibbi yardım bölmələri fəaliyyətlərini təsdiqlənmiş növbətçilik cədvəllərinə uyğun olaraq həyata keçirəcək”,- deyə məlumatda bildirilib.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
20 MART CÜMƏ AXŞAMI 2025


# SƏRSƏNGDƏN UMUDLUYA YENİ YOL



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərə rayonuna səfər ediblər. Səfər çərçivəsində Həsənriz kəndində sakinlərlə görüşüb, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri, məskunlaşdırma prosesi sürətlə davam edir. Novruz bayramı ərəfəsində doğma yurdlarına qayıtmağın sevincini bu dəfə Ağdərə rayon sakinləri yaşadılar. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdərə rayonuna səfəri, sakinlərlə görüşü bu anları onlar üçün daha da unudulmaz edib.

### İLK HƏRBİ QƏLƏBƏLƏRİMİZDƏN BİRİ

Səfər çərçivəsində Ağdərə rayonunun Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimi keçirilib, yeni mənzillərə köçən sakinlərə evlərin açarları təqdim olunub. Kəndə köçlə bağlı ümumilikdə 180 ailə (591 nəfər) siyahıya alınıb. 2,3 hektar sahədə yaradılan kompleks beşmərtəbəli olmaqla beş yaşayış binasından ibarətdir. Bu binalarda ümumilikdə bir, iki, üç və dördotaqlı 190 mənzil var.

Kənddə yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında da əsaslı təmir işləri aparılıb. Bundan əlavə, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları yenidənqurmadan sonra istifadəyə verilib.

Dövlət başçısı sakinlərlə görüşü zamanı bildirib ki, burada yaşamaq üçün bütün şərait var: "Bu kənd İkinci Qarabağ müharibəsinin ilk həftəsində işğalçılardan azad edilmişdir. Bu, bizim birinci əhəmiyyətli uğurlarımızdan, hərbi qələbələrimizdən biri idi. Bildiyiniz kimi, 44 gün ərzində bizim Ordumuz, bütün Silahlı Qüvvələrimiz ancaq irəliyə gedirdi və hər bir kəndin, hər bir qəsəbənin azad olunması Ordumuza, bütün xalqımıza əlavə ruh verirdi. Özü də böyük yaşayış məntəqəsinin işğalçılardan azad edilməsi xüsusi əhəmiyyətə malik idi. Suqovuşan kəndi birinci kənd idi ki, işğalçılardan azad edildi".

### "SUQOVUŞANIN ÇOX BÖYÜK STRATEJİ ƏHƏMİYYƏTİ VAR"

Dövlət başçısı qeyd edib ki, bu kəndin əhəmiyyəti təkcə bununla məhdudlaşmır: "Çünki bildiyiniz kimi, bunun çox böyük strateji əhəmiyyəti var. Bax, bu kəndin ətrafında və su anbarının ətrafında yerləşən bütün mövqelərdə qanunsuz silahlı birləşmələr, Ermənistan ordusunun şəxsi heyəti yerləşmişdi. Hərbi nöqteyi-nəzərdən bu kəndi işğalçılardan azad etmək həm böyük qəhrəmanlıq tələb edirdi, həm də fədakarlıq tələb edirdi. Bizim hərbçilərimiz də öz canlarından keçərək, özlərini güllələrin qabağına verərək, bu şərəfli missiyanı yerinə yetirdilər. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

## SUQOVUŞANDA MƏSCİD DƏ İSTİFADƏYƏ VERİLİB

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşan kəndində məscidin açılışında da iştirak ediblər.

Eyni vaxtda 100-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub. Məscidin həyəti də yaşıllaşdırılıb. İbadət ocağının daxilində xüsusi bəzək elementlərindən istifadə olunub.

Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci ilin martında bu ibadət ocağının təməlqoyma mərasimində iştirak ediblər.

Bu məsciddə yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsünə və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib və ya əsaslı şəkildə bərpa edilib.

Qeyd edək ki, işğal zamanı məscidlərimiz də vəhşiliklə dağıdılıb, 67 məsciddən 65-i məhv edilib. İşğaldan azad olunmuş ərazilərimizdə hazırda aparılan geniş quruculuq işləri çərçivəsində yeni məscidlərin inşası da mühüm





yer tutur. Suqovuşan kəndindəki məscidin tikintisi, eyni zamanda, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir.

### HƏSƏNRİZDƏ NOVRUZ TONQALI

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərənin Həsənriz kəndində sakinlərlə birlikdə Novruz tonqalını alovlandırıblar, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.

Dövlət başçısı bildirib ki, burada da evlər bərpa edilib, yeni evlər də tikiləcək. İndi, birinci mərhələdə 163 ailə yerləşəcək.

İlham Əliyev buraya köç edəcək insanların məşğulluq məsələsi ilə bağlı görülən işlərlə də maraqlanıb. Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov bildirib ki, Həsənriz böyük kənd olduğuna görə burada 13 təsərrüfat subyekti ilə, obyektlərlə bağlı müraciətlər olub. Dövlət başçısı qeyd edib ki, sakinlərə əkin sahələri də verilməlidir.

Qeyd edək ki, Prezident İlham Əliyevin Ağdərə rayonuna səfəri çərçivəsində Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidənqurmadan sonra açılışı da reallaşıb.

Prezident İlham Əliyevin ötən il imzaladığı Sərəncama uyğun olaraq, Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması işləri yüksək səviyyədə həyata keçirilib.

Dördüncü texniki dərəcəli avtomobil yolunun uzunluğu 9,4 kilometr, hərəkət zolaqlarının eni isə 6 metrdir. Yolda nəqliyyatın rahat və təhlükəsiz hərəkəti üçün zəruri işlər görülüb.

# MAKRONA ZƏNG, SƏRHƏDDƏ ATƏŞ SƏSLƏRİ

Erməni baş nazir Nikol Paşinyan əldə edilən sülh razılaşmasının məntiqi sonluqla yekunlaşması əvəzinə, yenidən köhnə ampluasına qayıdıb. Nikol Paşinyan bir neçə gün ərzində yenidən telefona sarılaraq, ardıcıl şəkildə Rusiya, İran və Fransa prezidentlərinə zəng edib.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan və Ermənistan arasında uzun sürən danışıqlardan sonra sülh sazişi mətninin bütün maddələri üzrə razılıq əldə olundu. Tabii ki, bu məsələdə Bakının israrlı mövqeyi və tələbləri fonunda razılaşdırılan maddələr bölgədə davamlı sülh və sabitliyin təminini hədəfləyir. Lakin bu, iki ölkə arasında bütün problemlərin həlli və sülhə mövcud təhdidlərin tam aradan qaldırılması anlamına da gəlmir. İndi İrəvanın atacağı daha mühüm addımlar var: ölkəmizə qarşı ərazi iddialarının təsbit edildiyi konstitusiyanın dəyişdirilməsi və artıq mövcudluğu heç bir əhəmiyyət kəsb etməyən Minsk Qrupunun buraxılmasını təmin etmək. Bu iki məqam Ermənistan rəhbərliyi, xüsusilə də baş nazir Nikol Paşinyandan siyasi iradə və qətiyyət tələb edir.

### TELEFON MARAFONU

Təəssüf ki, erməni baş nazir əldə edilən bu razılaşmanın məntiqi sonluqla yekunlaşması əvəzinə, yenidən köhnə ampluasına qayıdıb. Paşinyan bir neçə gün ərzində telefona sarılaraq ardıcıl şəkildə Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Məsud Pezeşkian və Fransa Prezidenti Emmanuel Makrona zəng edib. Sözdə bu danışıqlarda sülh sazişi ilə bağlı yekun qərarın müzakirə edildiyi bildirilir. Lakin siyahıya nəzər salmaq kifayətdir ki, Paşinyanın hər üç ölkədən başqa istəklərinin olduğunu iddia edək. Ən azından, Moskva, Tehran və Parisin iki ölkə arasında sülhün əldə olunması ilə bağlı yaşanan prosesə müdaxilələrini xatırlatmaq kifayətdir. Hansı ki, hər belə müdaxilə sülh prosesini aylarla çıxmaza sürükləyirdi.

Belə görünür ki, indi də Paşinyanın məqsədi köhnə havadarlarından yardım alaraq, prosesi öz xeyrinə dəyişmək cəhdidir. Nikol özlüyündə Bakını "fakt" qarşısında qoymaqla Rusiya və İranın timsalında regional, Fransanın timsalında isə Avropanın dəstəyini arxasına almaqla sülh yolunda başlıca maneə sayılan konstitusiya dəyişikliyi məsələsini arxa plana keçirmək istəyir.



## PAŞİNYANIN UNUTDUĞU MƏQAMLAR

Amma Paşinyanın unutduğu bir neçə məqam var ki, xatırlatmaq yerinə düşər. Bu gün zəng edib dəstək axtardığı heç bir dövlət İrəvanın arxasında dayanmaq və ya bu prosesə yetərincə zaman ayırmaq imkanında və istəyində deyil. Hər birinin gündəmini kifayət qədər məşğul edən ciddi problemlərin olduğunu nəzərə alsaq, Paşinyanın dönüb-dolaşıb üz tutacağı ünvan yenə də Bakı olacaq.

İkincisi, İrəvan bir neçə dəfə sülh danışıqları prosesini fərqli platformalara çıxartmaqla hansısa üstünlük əldə etməyə cəhd göstərsə də, bütün bunlar tam iflasla nəticələndi. Moskva, Brüssel və Vaşinqton formatları bunun əyani sübutudur. Yeri gəlmişkən, bu formatların iki əsas oyunçusu məhz erməni baş nazirin indi əlaqə saxladığı dövlətlərdir.

Üçüncüsü, bu zamana qədər sülh danışıqlarında əldə olunmuş bütün nailiyyətlər, həmçinin yekun sülh sazişinin mətni də Bakının irəli sürdüyü və İrəvanın razılaşmaqdan başqa çarəsinin qalmadığı ikili danışıqlar formatının nəticəsidir.



O zaman sual olunur: Paşinyanın ardıcıl zənglərinin və Bakının əsas iki tələbinin yerinə yetirilməsində tərəddüdünün səbəbi nədir? Erməni baş nazir nədən narahatdır?

### DƏYİŞMƏYƏN ERMƏNİ XİSLƏTİ

Bu, bir tərəfdən erməni baş nazirin iqtidarına qarşı ölkə daxilində artan narazılıqlarla bağlıdırsa, əsas məqam yenə də dəyişməz olaraq qalır: erməni xisləti. Rəsmi Bakı açıq şəkildə bəyan edir ki, İrəvana olan etimad sıfıra bərabərdir. Bu bəyanat səbəbsiz də deyil. Sülh mətninin razılaşdırılmasından üç gün keçməmiş şərti sərhəddə bir gündə üç dəfə mövqelərimiz atəşə tutulur. Qarşı tərəfdə hərbi postlarda yenidən hərəkətlilik qeydə alınır. Vurğulamaq yerinə düşər ki, son razılaşdırılan maddələrdən biri sərhəddə üçüncü dövlətlərin nümayəndələrinin olmaması ilə bağlıdır. Göründüyü kimi, Paşinyanın Makrona və digərlərinə zəngindən sonra sərhədimizə göndərilən Avropa casuslarından ibarət müşahidə missiyası üçün yenidən fəaliyyət dairəsi formalaşdırılır. Belə bir məqamda əldə olunan razılaşmanın mürəkkəbi qurumamış erməni xisləti yenidən özünün əsl simasını göstərir.

### "SÜLHMƏRAMLI MİSSİONER" OBRAZI

Bu səbəbdən, Paşinyanın "sülhməramlı missioner" obrazı real faktlar qarşısında bir daha uğursuzluğa məhkumdur. Son günlərdə yaşananlar bir daha Bakının konstitusiya dəyişikliyi və ərazi iddialarına birbaşa son qoyulması ilə bağlı tələblərinin nə dərəcədə əsaslı olduğunu göstərir. Yarımçıq sülh ona başlıca əngəl yaradan və 30 illik münaqişəyə rəvac verən əsas səbəb ortadan qaldırılmadan adi kağız parçasından başqa bir şey deyil. Orada erməni baş nazirin imzası olsa belə. Çünki sülh şəxslər yox, dövlətlər arasında imzalanır. Bu gün erməni baş nazir Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və heç bir iddiasının olmadığını bəyan etsə də, ölkəsinin əsas qanunu bunun əksini diktə edir. Məhz bu səbəbdəndir ki, sülh sazişinin imzalanması üçün öncə ona davamlı və dönməz mahiyyət verəcək şərait formalaşmalıdır. Bu şəraitin yaradılması isə Bakıdan yox, İrəvandan asılıdır. Bölgə üçün bu cür həssas bir məqamda telefon diplomatiyasındansa real addımlar atmaq Paşinyanı (əgər həqiqətən istəyirsə - red.) yekun sülhə daha çox yaxınlaşdıracaq. Bunun yolu isə Bakı ilə ikitərəfli danışıqlar formatı çərçivəsində, heç bir kənar müdaxilə olmadan dialoqu davam etdirməkdir.

# MƏRKƏZİ ASİYA ÜÇÜN TARİXİ RAZILAŞMA

Qırğızıstan və Tacikistan çoxdandır davam edən fikir ayrılıqlarına son qoyaraq tarixi sazişə imza atıblar. İki ölkə arasındakı sərhədlər dəqiqləşdirilib, su bölgüsü ilə bağlı razılıq əldə olunub.



AZƏR NURİYEV



İki Mərkəzi Asiya ölkəsi - Qırğızıstan və Tacikistan sərhəd mübahisəsini keçmişdə buraxmaq barədə tarixi sazişə imza atıblar. Ən əsası odur ki, bu razılaşma üçüncü tərəfin iştirakı olmadan baş tutub.

### ÜÇ İLDƏ DƏYİŞƏN REALLIQ

Təxminən min kilometrlik sərhədlə bağlı anlaşmanı Qırğızıstan Prezidenti Sadır Japarov və tacikistanlı həmkarı Emoməli Rəhmon "tarixi razılaşma" adlandırıblar. Cəmi üç il əvvələ qədər bu sərhədin yarısı mübahisəli idi. 2021 və 2022-ci illərdə iki ölkə arasında baş verən ağır toqquşmalarda onlarla insan həlak olub. Sazişin imzalanması zamanı hər iki prezident bu addımın regionda sabitlik və təhlükəsizlik baxımından vacibliyini vurğulayıblar. S.Japarov qeyd edib ki, Qırğızıstanla Tacikistan arasındakı sərhəd bundan sonra iki qardaş ölkənin və xalqın əbədi dostluğunun sərhədi olacaq. O əlavə edib ki, "siyasi, ticari-iqtisadi, mədəni-humanitar sahələrdə qarşılıqlı fəaliyyətin mütərəqqi inkişafı üçün kompleks tədbirlər görüləcək".

E.Rəhmon isə "imzalanan sənədlərin Tacikistan-Qırğızıstan münasibətlərində yeni səhifə açacağını" bildirib. O, bütün səylərin iki ölkənin paytaxtları arasında 2021-ci ildə dayandırılmış hava nəqliyyatının bərpasına, kommunikasiyalar sahəsində əməkdaşlığın inkişafına yönəldiləcəyini vurğulayıb.

Yeri gəlmişkən, iki ölkə liderləri arasında görüş Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə baş tutmuşdu. O zaman E.Rəhmon qırğız həmkarının hətta əlini də sıxmamışdı. Putin isə bu məsələyə, demək olar ki, maraq göstərmirdi. Lakin martın 12-də İ.Rəhmon Qırğızıstanın paytaxtı Bişkekə endikdən sonra iki lider arasında həm uzun bir əl sıxışması, həm də üç qucaqlaşma olub. Onu ənənəvi rəqqaslar və musiqiçilər qarşılayıb, şəhərdə isə şəklini əks etdirən və "Zati-aliləri"ni ən səmimi ifadələrlə salamlayan bilbord yerləşdirilib.

## RUSİYA PROSESLƏRDƏN MƏMNUNDUR?

Putinin əvvəlki vasitəçilik səyləri uğursuz alınsa da, Avrasiya İqtisadi İttifaqı (Aİİ) və KTMT-nin lideri kimi Rusiya üçün Mərkəzi Asiyada "ağrı nöqtələri"ni aradan qaldırmaq son dərəcə vacibdir. Qərblə davam edən qarşıdurma və sərhəd perimetri boyunca digər problemli ərazilərin mövcudluğunu nəzərə alsaq, uzun müddətdir davam edən mübahisələrdən birinin həlli Rusiyaya öz resurslarını optimallaşdırmağa və Mərkəzi Asiyada mövqelərini möhkəmləndirməyə imkan verir. Tacikistan-Qırğızıstan ziddiyyətlərinin davam etməsi Moskvanı seçim qarşısında qoyurdu və MDB, KTMT və Aİİ-də inteqrasiyaya zərər vururdu. Saziş KTMT tərəfindən də müsbət qarşılanıb. Katibliyin bəyanatında deyilir: "Sərhəd məsələlərinin həlli, şübhəsiz ki, regional əməkdaşlığın mütərəqqi inkişafına və KTMT-nin məsuliyyət zonasında təhlükəsizliyin artırılmasına töhfə verəcək".

### İCMALAR ÜÇÜN HƏYAT NECƏ DƏYİŞƏCƏK?

Beləliklə, iki sərhəd keçidi təxminən dörd ildən sonra ilk dəfə yenidən açılıb. Hər iki ölkənin parlamentlərində bu razılaşmanın ratifikasiyasının formal bir prosedur olacağı gözlənilsə də, Qırğızıstanda bəzi narahatlıq əlamətləri müşahidə edilir. İndi əsas sual budur: su qıtlığı yaşanan və sıx məskunlaşmış bu bölgədə uzun illər əziyyət çəkən icmalar üçün həyat necə dəyişəcək? Bəzən qırğız və tacik icmaları arasında sərhəd pozuntusu və su resurslarına çıxış məsələləri ilə bağlı gərginlik yaranır, sonu isə qanlı toqquşmalarla bitirdi. 2022-ci ildə dörd gün davam edən münaqişə zamanı təkcə Qırğızıstanda 100 mindən çox insan evindən didərgin düşmüşdü.



Qırğızıstan parlamentində millət vəkili Sultanbay Ayjiqitov bildirib ki, bu razılaşma Tacikistanı uzun müddətdir ardıcıl olaraq izlədiyi məqsədinə bir addım daha yaxınlaşdıracaq. Bu məqsəd isə tacik hökumətinin heç vaxt "eksklav" olaraq qəbul etmədiyi Vorux ərazisini Tacikistana birləşdirməkdən ibarətdir. Deputat bu açıqlamasından sonra hökumətyönlü "Yiman Nuru" partiyasından xaric edilib. Partiyanın lideri Dinara Aşimova deyib ki, deputatın şərhləri partiyanın xəttini əks etdirmir. Qırğızıstan prezidenti isə dövlət mediasına açıqlamasında deputatı demaqoqluqda ittiham edib.

## SU BÖLGÜSÜ İLƏ BAĞLI RAZILIQ MÖVCUDDUR

Razılaşma ilə bağlı hər hansı narazılığın qarşısını almaq ratifikasiyadan əvvəl Qırğızıstan hökumətinin əsas prioritetlərindən olacaq. Hökumətin bu sahədə təcrübəsi də var. 2022-ci ildə Özbəkistanla nəzəri cəhətdən daha az mübahisəli sərhəd razılaşmasına qarşı etirazlar Japarov rejiminə qarşı ilk real çağırış oldu. Qırğızıstan-Tacikistan sərhəd müqaviləsi Qırğızıstanın Ak-Su, Tacikistanın isə İsfara çaylarından su götürən Qolovnoy suburaxıcı qurğusundan suyun birgə istifadəsi üçün zəmin yaradıb. Taciklər və qırğızlar artıq şlüzdən suyu paylaşırlar. Halbuki bu məsələ 2021-ci il üçgünlük sərhəd müharibəsi zamanı mübahisə mənbəyi olmuşdu. Bu və digər ortaq infrastrukturun praktikada necə idarə olunacağını zaman göstərəcək.

### DÜŞMƏNLİKDƏN DOSTLUĞA

Hər iki ölkənin düşmənlikdən dostluğa keçidinin martın 31-də Tacikistanın Xucand şəhərində Özbəkistanın da iştirakı ilə keçiriləcək üçtərəfli sammitdə daha da möhkəmlənməsi gözlənilir. Özbəkistan bir vaxtlar hər iki ölkə üçün qorxulu qonşu olub. Bu vəziyyət Prezident Şavkat Mirziyoyevin mərhum İslam Kərimovu əvəz etməsindən sonra tamamilə dəyişib. Prezident Mirziyoyev ətrafına təhdidlər deyil, fürsətlər prizmasından yanaşıb və öz ölkəsinin sərhəd mübahisələrini tez bir zamanda həll etməyə çalışıb.

Beləliklə, hər iki ölkə bütün mübahisələri yalnız siyasi-diplomatik metodlarla həll etmək potensialını nümayiş etdirmiş olub.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# NOVRUZ BAYRAMI: əvvəl və indi

Novruz bayramı ilə bağlı olan adətlər şəhər yerlərində demək olar ki, unudulmaq üzrədir. Keçmiş ənənələrə bağlılıq itir, dünya qloballaşır və Azərbaycan insanı da buna ayaq uydurmağa çalışır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Bu gün Azərbaycanda Novruz bayramıdır. Novruz - baharın gəlişini, təbiətin oyanışını, yeni ilin başlanğıcını simvolizə edən ən qədim bayramlardan biridir. Həm də digərlərindən seçilən, insana ümid, motivasiya verən, gələcəyə olan inamını artıran, milli kimliyini xatırladan ən önəmli bayramlardandır.

Lakin xüsusilə, şəhərləşmə prosesi Novruzun bəzi adətlərini unutdurur. Bəs hansı adətlər unudulub, yaxud unudulmaq üzrədir? Novruz əvvəl necə qeyd edilirdi, indi necə?

### "YUMURTA BOYAYIR, NOXUD, BUĞDA QOVURURAM"

Evdar qadın Fərqanə Şəbiyeva bəzədiyi Novruz süfrəsində adətləri yaşatmağa çalışır. Çünki bu, ona ailəsindən aşılanıb. Hətta atasının ona verdiyi kiril hərfləri ilə yazılan "Novruz" kitabını saxlayır, unutmamaq üçün hər il o kitaba baxır, adətləri yerinə yetirməyə çalışır.

Deyir ki, hər dəfə bayram süfrəsində mütləq yeddi növ nemət olmalıdır: "Bizim ailədə sonuncu çərşənbə Novruz bayramından seçilmir. Həmin günlər çox şən, əsl toy-bayram ab-havasında olur: "Süfrəmdə mütləq səməni olur. Ümumiyyətlə, süfrəyə adları "s" hərfi ilə başlayan yeddi nemət düzürəm. Bura sumax, sirkə, süd, səməni, su, səbzi, sünbül daxildir. Şəkərbura, paxlava, qoğal olmadan Novruz bayramını təsəvvür etmirəm. Mütləq yumurta boyayır, noxud, buğda qovururam".

### "AXŞAM OD, SƏHƏR SU ÜZƏRİNDƏN TULLANARDIQ"

Həmsöhbətimiz deyir ki, kənddə olanda çərşənbədən bir gün sonra sübh vaxtı bulaq başına gedərdilər: "Hava işıqlanmadan bulaq başına gedər, suyun üzərindən tullanardıq. Çərşənbə axşamı od üzərindən, çərşənbə günü isə axar su üzərinə ağırlığımızı tökərdik. İndi şəhərdə bunu etmirik, getməyə yer yoxdur. Yadımdadır, anam saçımızın ucundan kəsər, xəstəlikləriniz bununla getsin deyər, axar suya atardı".

### AĞDAMDA QALANAN BÖYÜK TONQALLAR

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid deyir ki, Novruz bayramında böyük tonqallar qalanar, uşaq, qadın, kişi - hamı o tonqalın ətrafına toplaşardı: "Novruz bayramı xalqımızın min ildən bəri gələn milli bayramıdır, ilin təzələnməsi, təbiətin dəyişməsidir. Təbiətin dəyişməsi eyni zamanda ruhun, insan qəlbinin, şövqünün təzələnməsi ilə müşayiət olunur. Uşaqlığım Ağdamda bir nömrəli məktəbin yanında dörd mərtəbəli binada keçib. Yadımdadır ki, o illərdə binamızın yanında Ceyran bağı var idi. Orada çərşənbə axşamları və Novruz bayramında böyük tonqallar qalanardı. Böyük, uşaq, qadın, kişi - hamı heyrətlə tonqal ətrafına toplaşar, "ağırlığım bu tonqalda" deyib tullanardı".



Rəşad Məcid

### "HƏVƏSLƏ TORBAMIZIN QAYTARILMASINI GÖZLƏYƏRDİK"

Novruz deyəndə ağıla gələn ən maraqlı adətlərdən biri papaqatdıdır. Bu adət də artıq unudulmaq üzrədir. Çünki nadir hallarda qonşu qapını açar, papağı götürər. İndi "qapını açma, papaqdır" sözləri daha çox eşidilir. Açdıqda isə, papağa pul qoyurlar.

R.Məcid deyir ki, bu mərasim uşaqlar üçün çox maraqlı idi: "Bizim evə də torba atırdılar, içini şirniyyat, qoz-fındıqla doldurardıq. Biz özümüz də qonşulara torba atar, həvəslə qaytarılmasını gözləyərdik. Ən maraqlısı isə yumurta boyamaq və yarışdırmaq idi. Yumurtanı soğan qabığı ilə qırmızıya boyayardılar, heyrətlə ona baxardım. Yumurta döyüşdürmək prosesi isə bir yarışa çevrilirdi".

### "UŞAQ QAPI PUSUR, EV SAHİBİ GÖRÜB ONU ACILAYIR..."

Folklorşünas alim Elxan Yurdoğlu deyir ki, Novruz bayramı ilə bağlı olan adətlər şəhər yerlərində demək olar ki, unudulmaq üzrədir: "Kənd yerlərində isə adətlər mümkün dərəcədə qorunub saxlanılır. Unudulma səbəblərindən biri insanların həddən artıq praqmatik olmasıdır. Şəhər həyatı və müasir texnologiyalar insanların ənənəvi bayramları qeyd etməsinə təsir edir. İnsanlar kənd təsərrüfatına və təbiətə bağlı həyat tərzindən uzaqlaşdığı üçün bəzi adətlər zamanla yaddan çıxır. Üstəlik, onların texnoloji avadanlıqlara yönəlməsi inanc sisteminə tədricən təsir edib. Məsələn, vaxtilə qapı pusmaq kifayət qədər maraqlı hesab olunurdu və insanlar arzu tutub qapı pusurdu. Artıq bu nəinki şəhər, kənd yerlərində də sıradan çıxıb. Çünki əksəriyyət bunu normal qəbul etmir. Özüm şahidi olmuşam ki, uşaq qapı pusur, ev sahibi görüb onu acılayır. Yaxud uşaqlar qapıya torba atır, qapını açmırlar. Bu adətlər yavaş-yavaş sıradan çıxmağa başlayır".



## "Keçmiş ənənələrə bağlılıq itir"

Mütəxəssis deyir ki, keçmiş ənənələrə bağlılıq itir, dünya qloballaşır və Azərbaycan insanı da buna ayaq uydurmağa çalışır: "Novruzdan əvvəl ilaxır çərşənbənin sabahı günəş doğmadan insanlar bulaq başına gedər, su gətirər, evin künc-bucağına, həyət-bacaya, mal-qaranın olduğu yerə səpirdilər. Bunun mənası yenilik, təmizlik, yeni həyata qədəm qoymaq idi. Bu adət artıq yoxdur. İnsanlar mifə inanmır, keçmiş ənənələrə bağlılıq itir, öz dəyərlərindən uzaqlaşır. Məsələn, axır çərşənbədəki Novruz tonqalının külünü insanlar həyətdəki ağacların dibinə tökərdilər. Yəni od külə çevrilsə belə, yenidən həyat verirdi. Bunlar indi yoxdur. Tonqalların da ətrafında nadir hallarda böyüklər olar".

### GƏLİNƏ GEDƏN NOVRUZ PAYI

Həmsöhbətimiz deyir ki, ən maraqlı adətlərdən biri valideynlərin öz qızı gəlin köçübsə, evinə Novruz payı göndərmək idi: "Məsələn, anamın 70 yaşı var. Hər il bayram günü tonqal qalanana kimi ata evindən onun payı gəlir. Düzdür, valideynləri, iki qardaşı, bacıları dünyadan köçüb, amma buna baxmayaraq, o evdə olan dayım uşaqları anamın payını gətirirlər. Çünki ataları bunu edərdi. Bunlar müasir dövrdə yoxdur. Məsələn, biz kosa, keçəli ancaq müəyyən tədbirlərdə görürük. Amma bunun ənənəsi var idi".



Elxan Yurdoğlu

# BAYRAM TƏTİLİNDƏ HARA GETMƏLİ?

Bu il Qəbələ, Şəki, Quba, Qusar, Lənkəran və Gəncə istiqamətlərinə maraq var. Xüsusilə Gəncə istiqamətində sürət qatarı olduğu üçün daha çox səyahət gözlənilir. Bakı sakinləri üçün ən yaxın ərazilər isə paytaxtdan iki-üç saatlıq məsafədə yerləşən ərazilərdir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Martın 20-dən etibarən Azərbaycanda 12 günlük bayram tətili başlayır. Nazirlər Kabinetinin qərarına əsasən, aprel ayının 1-dək ölkədə qeyri-iş günü hesab edilir. Belə uzunmüddətli istirahət xüsusilə, də yaz fəslində gözəl fürsətdir.

Bəs 12 günlük tətili məhsuldar və maraqlı keçirmək üçün necə dəyərləndirə bilərik? Ölkə daxilində və xaricində bu fəsildə gəzməli yerlər haradır? Ən əsası, qiymətlər necədir?

Suallarımızı turizm mütəxəssislərinə ünvanladıq.

**“ÖLKƏ DAXİLİNDƏ XÜSUSİ AKTİVLİK GÖZLƏNİLİR”**

Turizm mütəxəssisi Ceyhun Aşurov “Kaspi”yə açıqlamasında deyir ki, 12 günlük tətildə ölkə daxilində xüsusi aktivlik gözlənilir: “Bu il Qəbələ, Şəki, Quba, Qusar, Lənkəran və Gəncə istiqamətlərinə maraq var. Xüsusilə Gəncə istiqamətində sürət qatarı olduğu üçün daha çox səyahət gözlənilir. Bakı sakinləri üçün ən yaxın ərazilər isə paytaxtdan iki-üç saatlıq məsafədə yerləşən ərazilərdir. Buraya Quba, Şabran, Şamaxı və Qəbələni misal göstərmək olar. Həmin bölgələr turizm baxımından çox tələbatlıdır və formalaşmış infrastruktura malikdir. Ona görə də insanlar bu ərazilərdə istirahət etməyə daha çox üstünlük verirlər”.

**“VİLLALAR AİLƏLƏR ÜÇÜN SƏRFƏLİDİR”**

Qiymətlərə gəldikdə isə, mütəxəssis deyir ki, qalma yerləri və hotellərin kateqoriyasına görə qiymətlər fərqlidir: “Regionlarda üç ulduzlu hoteldə iki nəfərlik otaqda qiymətlər gecəsi 80 manatdan, beş ulduzlu hotellərdə isə 200-250 manatdan başlayır. Eyni zamanda, həmin istiqamətlərdə villalar var ki, bu, ailələrə daha çox sərfəlidir. Villanın da qiymətləri yerləşmə yeri, şəraitinə görə dəyişir. Qiymətlər günlük 250-300 manatdan başlayır. Ona görə sərfəlidir ki, villada daha çox adam qala bilir. Hotellərdə isə bir otaqda maksimum dörd nəfər gecələyə bilər, qiyməti də təbii ki, yüksək olur”.

**BATUMİ, DUBAY, İSTANBUL, MALDİV...**

Həmsöhbətimizin sözlərinə görə, bayram tətilində ölkə xaricinə gedənlər də az deyil: “Artıq bu ayın əvvəlindən turizm şirkətləri sosial şəbəkələrdə ölkə xaricinə səfərlərlə bağlı müxtəlif təkliflər irəli sürürdü. Batumi, Tbilisi, İstanbul, Doha, Dubay istiqamətlərinə üç-dörd günlük turların qiyməti hoteldə qalma və təyyarə bileti də daxil olmaqla, 400-500 dollar ətrafında dəyişirdi. Eyni zamanda, Misirə də sərfəli turlar mövcuddur. Qiymətlər 500 dollardan başlayaraq, 1000 dollara qədər dəyişir. Hətta Maldiv, Şri-Lanka istiqamətinə də 1000 dollardan başlayan turlar mövcuddur. Vətəndaşların ölkə xaricində istirahət üçün kifayət qədər vaxtları olduğundan, istədikləri ölkəyə rahat səyahət edə bilirlər”.

## “Bu tətil qiymətlər əlverişlidir”

Mütəxəssis vurğulayır ki, bayram tətili Ramazan ayına təsadüf etdiyi üçün ölkəyə gələn turistlərin sayında azalma var. Tələbat az olduğu üçün qiymətlər də nisbətən ucuzdur: “Çünki Ramazan ayında, xüsusilə İslam ölkələrindən gələn turistlərin sayı çox olmur. Bu da tələbatın kəskin qalxmasının qarşısını alır. Ona görə də qiymətlər hazırda ötən ilkindən yüksək deyil, hətta ötən illə müqayisədə nisbətən əlverişli qiymətlər əldə etmək mümkündür. Ölkə daxilində də aktivlik əsasən qohum və dost ziyarətlərində daha çox olacaq. Çünki insanlar öz rayonlarına, qohum, dostlarını ziyarətə gedirlər. Amma sırf istirahət üçün hotelə gedənlərin sayı çox olmayacaq, bu da qiymətlərin kəskin artmasının qarşısını alan faktordur”.

**“AVROPA ÖLKƏLƏRİNƏ MARAQ AZDIR”**

Turizmçi Süreyya Axundova deyir ki, 12 günlük tətildə Avropa ölkələrinə maraq azdır: “Avropa ölkələri soyuq olduğu üçün bu tətildə tələbat az oldu. Daha çox Asiya - Tailand, Vyetnam, Maldiv istiqamətinə qeydiyyatlar oldu. Bununla yanaşı, Birləşmiş Ərəb Əmirliklərindən Dubay şəhəri, Türkiyədən İstanbul şəhərinə turistlər tərəfindən maraq daha çoxdur”.

Turizmçi bildirir ki, öncədən rezervasiya edənlər Asiya istiqamətinə bir adam üçün turu 1800-2500 manata əldə etdilər.

## “Ən sərfəlisi Lerik və Şəkidir”

S.Axundovanın sözlərinə görə, ölkə daxilində ən sərfəli rayonlar Lerik və Şəkidir: “Quba və Şamaxı Bakıya yaxın olduğu üçün daha bahadır”.

Məlumat üçün bildirək ki, Maldiv turu 2600 manatdan, İstanbul turu və Dubay 1000 manatdan başlayır.

**“ƏN ÇOX TURİST QƏBUL EDƏCƏK ƏRAZİ QARABAĞDIR”**

Turizm eksperti Rəhman Quliyev isə deyir ki, tətildə Azərbaycana Rusiyadan, Hindistandan, Pakistandan turistlərin gəlməsi gözlənilir: “Novruz milli bayram olduğu üçün yerli əhali bu bayram tətilinə daha çox maraq göstərir. Xüsusilə də Quba, Qusar, Şəki, Zaqatala, Balakən və Qax istiqamətinə bu tətildə səfər üçün daha çox üstünlük verilir. Bu il ən çox turist qəbul edəcək ərazi isə Qarabağ zonasıdır. Çünki bu, yeni turizm destinasiyasıdır. Şuşada və Xankəndidə fəaliyyət göstərən lüks hotellər, Laçının nisbətən ekonom büdcəli hotelləri Novruz şənlikləri təşkil edəcək, bu da həm o bölgənin əhalisi, həm də yerli turistlər üçün olduqca maraqlıdır”.

Turizm mütəxəssisi deyir ki, 12 günlük tətildə ölkə xaricinə gedənlərin də sayında artım müşahidə olunur: “Ümumi olaraq hər il olduğu kimi bu il də Türkiyəyə gedən yerli turistlərin sayında daha çox artım var. Eyni zamanda Dubay, Misirdə temperatur mülayim olduğu üçün bu istiqamətlərə də maraq olur”.




Foto: Sabir Məmmədov - Global Photostock

BİR FOTONUN ƏKS-SƏDASINDAN YARANAN EKRAN ƏSƏRİ HAQQINDA MARAQLI FAKTLAR



# 32 İLDƏN SONRA EŞİDİLƏN "VAĞZALI" SƏDASI



Fotolar: Əjdər İbrahimov - Global Photostock

**Yusif Ələkbərzadə:** "Qırxdan çox Xocalı sakini filmin sayəsində Xocalıya gəldi. Onların yaşadıqları hissləri filmdə vermişik: biri ağlayır, biri gülməyə başlayır... Bizim bəy-gəlinin qız övladı Bakıda doğulub. O, ilk dəfə idi Xocalını görürdü. Elə ağlayırdı ki... Hiss edirsən ki, o ağrı 32 il bunların ailəsinə dağ çəkib..."



SÖHBƏTLƏŞDİ
TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycan xalqının Xocalı faciəsi kimi yaddaşlardan silinməyəcək bir dərdi var. Bu günlərdə təqdimatı keçirilən "Global Media Group"un və "Report"un ərsəyə gətirdiyi "Xocalı. Son toy" ekran əsəri həmin dəhşətli hadisələri unutmamaq və gələcəyə baxış üçün ibrət dərsidir.

Filmin ssenari müəllifi Niyam Şirinov və rejissoru Yusif Ələkbərzadə "Kaspi"yə müsahibələrində ekran əsəri haqqında maraqlı məlumatlar verdilər.

**● Müharibə, tarix haqqında kinoları çəkmək asan deyil. Xüsusən, əgər bu süjet real faktlar əsasındadırsa... Niyə məhz bu gün də əks-sədasını yaşadığımız Xocalı hadisəsini ekrana gətirdiniz?**

**Niyam Şirinov:** Xocalı ilə bağlı bir çox görüntülər var. Bunların içərisində ən məşhuru "Son toy" fotosudur. Bu fotonun taleyi naməlum idi. Bəziləri deyirdi ki, "son toy" adı ilə paylaşırlar. Həmin toyda kimlərin iştirak etməsi haqqında heç bir məlumat yox idi. "Bəylə gəlin şəhərdə olub", "qonaqların hamısı şəhərdə olub" və ya "əsir götürülüblər" kimi fikirlər vardı. 2020-ci ilin 26 fevralında Xocalının son toyunun gəlinini - Dürdanə xanımı tapdım və ondan aldığım müsahibəni yayımladım. "Bu söhbətimizin davamını Xocalı alınandan sonra doğma yurdunuzda davam etdirərik", - deyə sözləşdik. Həmin ilin sentyabrında müharibə başlandı, torpaqlarımız geri alındı. Mən həmin müsahibəni unutmadım. Maraqlananda məlum oldu ki, Xocalının son toyunun bəy və gəlini, toyda iştirak edənlərin əksəriyyəti sağdır. Həmin adamları axtarıb tapdıq. Filmi çəkərkən fotodakı - toyda iştirak edən həmin qonaqların çoxunu, musiqiçiləri, yemək bişirənləri yenidən Xocalıya apardıq. Onların yarımçıq kəsilən "Vağzalı"sı 32 il sonra Xocalıda çalındı...

**Yusif Ələkbərzadə:** Biz əslində işə başlayanda bu qədər geniş miqyaslı film olacağını nəzərdə tutmamışdıq. Niyamla dörd ilə yaxın davam edən söhbətlərimizdə "söz vermişəm, onlara bir toy etməliyəm", - deyirdi. İlkin olaraq "Youtube" və ya sosial platformalar üçün müsahibə formatında nəzərdə tuturduq. Amma "Global Media Group"un rəhbəri Elnur Abdullayev və "Report" İnformasiya Agentliyinin direktoru Fuad Hüseynəliyevə fikrimizi deyəndə bizi dəstəkləyib "bu ideyanı filmə çevirək, bədii-sənədli film çəkək" dedilər. İş böyüdükcə proses də çətinləşdi: toyda iştirak edənləri tapmaq, dünyadan köçənləri araşdırmaq...
Sağ olanların hamısını bir-bir redaksiyaya dəvət edib görüşdük. İki aya yaxın hazırlıq prosesi getdi, onların hekayələrini ssenariləşdirməyə başladıq. İkinci rejissorumuz Ülvi Əsgərov da daxil olmaqla üçümüz yola çıxdıq. Yaradıcı heyətə ən yaxşılarını topladıq. Filmin birinci hissəsi Xocalıda, ikinci bədii hissəsi Ağsuda çəkilib. Mən əslində Xocalıda çəkilən hissədən qorxmurdum. Bu, filmin real hissəsidir. Real insanları, olmuş hadisələri çəkəcəyimiz üçün nə duyğu vardısa onu götürəcəkdik. Ən çətini bədii hissəsi idi: qəhrəmanların danışığına əsasən o vaxtkı dövrü qurmaq lazım idi...

## İLK DƏFƏ EKRANA ÇIXAN KADRLAR

**● Belə bir fikir var ki, filmin ilk təqdimatının əks-sədası onun taleyini həll edir. Təəssüratlar necədir?**

**Niyam Şirinov:** Reaksiyalar düşündüyümüzdən də yaxşıdır. Bu, bədii-sənədli film olduğu üçün iştirakçıların hekayəsindən yola çıxmışıq. Zaldakı insanların çoxunun gözü dolmuşdu, ağlayanlar da az deyildi. Filmin nümayişindən sonra səslənən fikirlər də müsbət oldu. Müəyyən səhvlərimiz ola bilər, amma əksər fikirlər yaxşıdır: həm faciəyə toxunulub, həm milli toy adət-ənənələri yer alıb, ən əsası, pozitiv notlar - 32 ildən sonra toyla Xocalıya qayıdış var.

**Yusif Ələkbərzadə:** Xocalı haqqında çox film çəkilib, bundan sonra da çəkiləcək. Bizim məqsədimiz faciəni göstərməklə yanaşı, qayıdış mövzusunu da ekrana gətirməkdir. Biz artıq Xocalıya qayıtmışıq, amma keçmiş günləri də unutmamışıq. Məncə bu, uğurlu alındı. Filmin sənədli hissəsində həmin hadisələr barədə indiyə qədər heç yerdə göstərilməyən videokadrlar da yer alıb. Xocalı hadisələrini o dövrdə iki operatorumuz - Çingiz Mustafayev və Seyidağa Mövsümlü lentə almışdı. Filmi çəkəndə məlum oldu ki, Xocalı sakinlərindən birinin - Şakir Məmmədovun kamerası olub. Uzun araşdırmalardan sonra o adamı tapdıq. O, öz imkanları hesabına aldığı kamerası ilə dost-tanışının xeyir-şərini çəkirmiş. Faciə başlayanda da kadrlar çəkməyə başlayıb. Onda heç bir yerdə olmayan kadrlar vardı. Sağ olsun, arxivini bizim üçün açdı və filmdə insanların ilk dəfə görə biləcəyi kadrlardan istifadə olundu. "Bu kadrlardan istifadə etməyə yalnız sizə icazə verirəm, başqa yerdə istifadə olunmasın" dedi. İzləyicilər o kadrlara baxanda həmin anları daha yaxşı xatırlayacaqlar. Orada 25 fevralda baş verənlərə aid kadrlar var.

> *"Tarixi filmlər həmişə maraqlı olur. İstər "Troya", istər "Sparta" olsun. Eləcə də Qarabağ haqqında filmlər maraqlıdır. Biz indi qələbəyə fokuslanaraq, müharibəmizdə qazanılan zəfərdən ilhamlanaraq, bütün dünyaya nümayiş etdirmək üçün filmlər çəkməliyik."*

## 35 DƏRƏCƏ İSTİ, BUŞLAT, PAPAQ, UZUNBOĞAZ ÇƏKMƏ...

**● Filmin bədii hissəsi üçün niyə məhz Ağsunu seçdiniz?**

**Niyam Şirinov:** Bir neçə rayonu gəzdik, kəndlərə baxdıq. Səhnə rəssamımızla bəzi yerlərin şəkillərini nəzərdən keçirdik. Biz filmi yayda - iyun-iyul aylarında çəkirdik. Qış fəslini canlandırmaq bir az çətin idi: quraqlıq, ağac, su olmayan yer lazım idi.

Köhnə ab-havanı yaratmaq üçün hamı evdən qədim əşyaları gətirirdi.

**Yusif Ələkbərzadə:** Ağsunun Ləngəviz kəndini seçdik. Bu kənd modernlikdən bir az uzaq, qədimliyi özündə saxlayan yaşayış məskənidir. Yayda aktyorların əynində buşlat, başlarında papaq, ayaqlarında uzunboğaz çəkmə vardı. 35 dərəcə istidə çəkilirdilər, heç yerdə ağac yox idi ki, kölgəsində dayansınlar. Filmi çəkəndə məşhur aktyorları dəvət etmədik. Təkcə Sumqayıt Dövlət Dram Teatrının aktyoru Mətləb Səfərovu çəkdik. Bəyin atasına oxşadığı üçün seçimi onun üzərində saxladıq. Əsas məqsədimiz o idi ki, aktyor heyətimiz şəkildə olanlara bənzəsinlər və bu, toyda iştirak edən Xocalı sakinlərinə də sürpriz olsun. Təbii ki, burada qrimin də rolu oldu. Həmçinin "Report"un iki əməkdaşı - Tuncay Türbənizadə və Gülər Seymurqızı da fotodakı insanlara oxşadıqları üçün filmdə əsas rollarda – bəy və gəlin rollarında çəkildilər.

## İNSANLARA ÖTÜRÜLƏN MESAJ

**● Hər bir ədəbiyyat, incəsənət nümunəsinin və ya ekran əsərinin auditoriyaya bir mesajı olur. Sizin demək istədiyiniz nədir?**

**Niyam Şirinov:** Belə bir fikir var: keçmişini unudanın gələcəyi olmur. Biz keçmişimizi unutsaq, gələcəyə necə ümidlə baxa bilərik? Biz keçmişdən ilhamlanaraq, bir növ gələcəyimizi qururuq. Tarixi filmlər həmişə maraqlı olur. İstər "Troya", istər "Sparta" olsun. Eləcə də Qarabağ haqqında filmlər maraqlıdır. Biz indi qələbəyə fokuslanaraq, müharibəmizdə qazanılan zəfərdən ilhamlanaraq, bütün dünyaya nümayiş etdirmək üçün filmlər çəkməliyik.

**Yusif Ələkbərzadə:** Xocalı və müharibələr haqqında kitablar, məqalələr yazılıb və yazılacaq. Bunları oxuyan insan sadəcə olmuş hadisələrin xronikasını öyrənə bilər. Filmlərdə bu mesaj fərqlidir. Bədii-sənədli filmlərdə biz yazılı məlumatları tamaşaçılar üçün görsəl olaraq da canlanıdırırıq və onların təfəkküründə həmin hadisələri reallaşdırmağa çalışırıq.

## XOCALI İLƏ GÖRÜŞ ANI

**● Toyda çəkilən ağ-qara foto yenidən zəfər bayrağı sancılmış azad Xocalıda rənglənmiş variantda canlandırılır. Bu epizod nəyi tərənnüm edir?**

**Niyam Şirinov:** Biz filmi çəkəndə aradan 32 il keçmişdi. Şəkildə olanların 11 nəfərindən 5 nəfəri toyda iştirak edirdi. Qalanları itkin düşüb, şəhid olublar. Biz şəklin rəngli versiyasını canlandıranda sağ qalanların qohumları 32 il sonra necə idisə, o şəkildə geri qayıtmışdılar.

**Yusif Ələkbərzadə:** Qırxdan çox Xocalı sakini filmin sayəsində Xocalıya gəldilər. Onların yaşadıqları hissləri filmdə vermişik: biri ağlayır, biri gülməyə başlayır... Bizim bəy-gəlinin qız övladı Bakıda doğulub. O, ilk dəfə idi Xocalını görürdü. Elə ağlayırdı ki... Hiss edirsən ki, o ağrı 32 il bunların ailəsinə dağ çəkib...



## MUĞAMLAR, "VAĞZALI", ALƏTLƏR...




**● Filmlərdə musiqi sadəcə bir film üçün fon deyil, onun əsas elementidir. Bu filmdə də musiqi vizual obrazlar və süjetlə qarşılıqlı əlaqədədir, tamaşaçı ruhuna nüfuz edir...**

**Niyam Şirinov:** Bəli, filmin belə təsirli alınmasında musiqisi tərtibatının böyük rolu oldu. "Xəzri Production" Mərkəzi film üçün xüsusi musiqi parçalar hazırlayıb. Mərkəzin rəhbəri Fuad Hilalovun filmin üzərində bizim qədər əməyi var. Muğamlar, balaban, klarnet, tar və udda ifa olunan kompozisiyalar - hamısı bizim film üçün yazılıb.

Günümüzün "Vağzalı"sıdır, amma keçmiş tərzdə çalınır. Avroviziya Mahnı Müsabiqəsinin iştirakçısı Nadir Rüstəmli və müğənni Azad Şabanovun ifasında səslənən saundtrek sırf filmə aid yazılıb. O mahnı filmi tamamlayan qayıdışa çevrilir.

## "FİLMİ MAKSİMUM TƏBLİĞ ETMƏYƏ ÇALIŞACAĞIQ"

**● Filmin daha geniş auditoriyaya çıxması üçün hansı planlar var?**

**Niyam Şirinov:** Biz filmi maksimum təbliğ etməyə çalışacağıq. Aprelin 17-dən 24-dək film kinoteatrlarda pulsuz nümayiş olunacaq. Apreldə Naxçıvanda da təqdimatı planlaşdırılır. Fikrimiz budur ki, filmi böyük şəhərlərdə, işğaldan azad olunmuş ərazilərimizdə təqdim edək. Film artıq ingilis dillənə tərcümə olunub, bu, xarici tamaşaçıların Xocalı soyqırımı barədə daha çox məlumat alması üçün edilib.

## ƏN BAŞLICASI, SÜLH...

**Sizcə, bu cür ekran işləri xalqları döyüşə sövq etməlidir, yoxsa bəşəriyyəti dialoqa dəvət etməlidir?**

**Niyam Şirinov:** Ən başlıcası, sülh lazımdır. Sülh hər şeyin açarıdır. Ali baş Komandanımız İlham Əliyev də sülh uğrunda mübarizə apardı. Bu illər ərzində biz sülh yolu ilə torpaqlarımızı qaytarmaq istədik. Amma kimsə torpaqları işğal edibsə və geri qaytarmaq istəmirsə, onda müharibə qaçılmaz olur. Biz də 30 il sonra – Ali Baş Komandanımızın qətiyyəti, xalqımızın və ordumuzun birliyi ilə torpaqlarımızı geri aldıq.

**Yusif Ələkbərzadə:** Bizim çəkdiyimiz, ümumiyyətlə dünyada çəkilən filmlərin əsas qayəsi belədir: "Ola bilər, siz müharibəni görməmisiniz. Biz sizə müharibənin necə olduğunu göstəririk". Müharibədə itki ikitərəfli olur, qələbə qazanan tərəf də əslində saysız-hesabsız can verir. Biz bu fəlakəti göstəririk. Ümid edirik ki, çəkdiyimiz film Xocalıdakı və digər azad olunmuş ərazilərimizdə çalınan yeni "Vağzalı"ların carçısı olacaq və yeni toylara çığır açacaq. Çəkilən fotolar da yalnız xoş xatirə kimi qalacaq.

# QIZIL QİYMƏTLƏRİNDƏ YENİ REKORD



**Azərbaycan qızılın qiymətinin artmasında uduşlu mövqedədir. Çünki qızıl ixrac edirik, eyni zamanda, Dövlət Neft Fondunun ehtiyatlarında da qızıl var. Bu prosesdə ziyan edənlər qızıldan bəzək əşyası kimi istifadə edən vətəndaşlardır.**

F.ABASOĞLU

Dünyada qızılın qiyməti yeni rekordlar vurur. Qızıl füçerslərinin 2025-ci ilin aprel ayında çatdırılma ilə qiyməti "Comex" birjasında (Nyu-York əmtəə birjasının bölməsi) tarixi maksimumunu yeniləyərək, bir troya unsiyası üçün 3050 dollar göstəricisindən yuxarı qalxıb. Bu, tarixi maksimum sayılır.

**BEYNƏLXALQ PROQNOZLAR DƏYİŞİR**

Birjalarda müşahidə edilən bu hərəkətlilik qızılın qiyməti ilə bağlı proqnozlara da təsirsiz ötüşməyib. "Fitch Ratings" beynəlxalq reytinq agentliyi qızılın 2025-2027-ci illər üçün qiymət proqnozunu yüksəldib. Məlumata görə, "Fitch" 2025-ci il üzrə qızılın orta qiyməti ilə bağlı proqnozunu 2100 dollardan 2400 dollara, 2026-cı il üzrə 1700 dollardan 2100 dollara, 2027-ci il üzrə isə 1700 dollardan 2000 dollara qədər artırıb. Başqa sözlə, proqnoz 2025-2027-ci illər üzrə 300-400 dollar artırılıb. Agentlik qeyd edib ki, yeni proqnoz geosiyasi risklər səbəbindən investorların qızıla tələbinin artması ilə bağlıdır: "2025-2027-ci illər üçün artırılmış qızıl qiyməti proqnozları, qiymətli metalın "təhlükəsiz liman" olması ilə bağlıdır. Ticarət müharibəsi ilə bağlı narahatlıqlar və səhmlər, eləcə də istiqraz bazarlarındakı dəyişkənlik qızıla yatırımları artıraraq, qiymətlərin rekord səviyyəyə çatmasına səbəb olub. Geosiyasi risklər və investorların inflyasiya, həmçinin dövlət borcu ilə bağlı artan narahatlıqları yaxın və orta müddətli qiymət proqnozlarını dəstəkləyir".

"Fitch" 2028-ci il üzrə isə qiymət proqnozunu 1800 dollardan 1600 dollara endirib. Analitiklər hesab edir ki, bu, bazarın sabitləşməsi, ticarət risklərinin azalması və ya alternativ investisiyalara yönəlmə ilə izah edilə bilər.

**DAXİLİ İSTEHSAL ARTIRILIR**

Azərbaycan da qlobal bazarda müşahidə edilən bu tendensiyaya uyğun addımlar atmaqdadır. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-fevral aylarında Azərbaycanda 478,3 kq qızıl, 776,6 kq gümüş istehsal edilib. Qızıl istehsalı 2024-cü ilin eyni dövrü ilə müqayisədə 81,4%, gümüş istehsalı isə 36,8% artıb.

Ötən iki ay ərzində Azərbaycanda mis konsentratının istehsalı 356,3 ton olub ki, bu da bir il öncəki göstəricidən 11,1 dəfə çoxdur. Bu ilin martın 1-nə olan məlumata görə, ölkədə 160,4 kq qızıl, 668,9 kq gümüş ehtiyatı yaranıb. Mis konsentratının ehtiyatı isə 234,5 ton təşkil edib.

Qeyd edək ki, Dövlət Neft Fondu tərəfindən 2024-cü ildə 44,8 ton qızıl alınıb. Bununla da ehtiyatların həcmi 146,6 tona çatdırılıb. Fond qızıl alışını 2025-ci ildə də davam etdirərək, ehtiyatların 170 tona çatdırılmasını planlaşdırır.

**Daha çox vətəndaşlara təsir edir**

Ekspertlər qızılın bahalaşmasının daha çox vətəndaşlara təsir etdiyi qənaətindədir. İqtisadçı Xalid Kərimlinin sözlərinə görə, Azərbaycan qızılın qiymətinin artmasında uduşlu mövqedədir: "Çünki qızıl ixracımız var, eyni zamanda, Dövlət Neft Fondunun ehtiyatlarında da qızıl var. Bu prosesdə ziyan edənlər qızıldan bəzək əşyası kimi istifadə edən vətəndaşlardır. Əsasən evlənən şəxslər bu qiymətli metalın alışında bahalaşmadan əziyyət çəkirlər".



# SOCAR Anlaşma Memorandumu imzalayıb

"İsrailə işgüzar səfər çərçivəsində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və "Union Energy" şirkəti arasında İsrailin Eksklüziv İqtisadi Zonasında (EEZ) birgə kəşfiyyat işlərinin aparılması üzrə Anlaşma Memorandumu imzalanıb". "Report" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib.

Sənədin icrası tərəflərin beynəlxalq əməkdaşlıq şəbəkəsinin genişləndirilməsinə və yeni enerji ehtiyatlarına çıxışına təkan verəcək.



# "Azərsun Holdinq" media nümayəndələri ilə görüş keçirib

Daim mediaya yönəlik layihələri ilə seçilən "Azərsun Holdinq" bu dəfə jurnalistləri iftar süfrəsində bir araya gətirib. Holdinqin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Rza Məmmədov qonaqları qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edərək, şirkətin Milli Mətbuatın 150 illiyi münasibətilə silsilə layihələrə davam edəcəyini bildirib.

Günümüzdə ictimai rəyin formalaşmasında medianın rolunun danılmaz olduğunu qeyd edən şöbə müdiri özəl sektorda da media ilə əlaqələrin tənzimlənməsinin önəmli və vacib olduğunu bildirib.

Xatırladaq ki, bir müddət öncə şirkət "Milli Mətbuat - 150 il" təqvim dəsti çərçivəsində millimetbuat150.azersun.com saytını ictimaiyyətə təqdim edib.

# NOVRUZ SƏYAHƏTİNDƏ "NAR" ROUMİNQİ İLƏ SEVDİKLƏRİNƏ YAXIN OL!

"Nar" Novruz bayramında xaricə səyahət planlaşdıranlar üçün sərfəli rouminq paketləri təklif edir. Ölkə xaricində olarkən sevdiklərinizlə rahat ünsiyyətdə qalmaq və internetdən sərfəli istifadə etmək üçün "Nar"ın rouminq paketlərindən birini seçə bilərsiniz.

Xüsusilə uzunmüddətli səfərlər üçün "Nar" "Rouminq 20" paketini tövsiyə edir. Bu paket sizə 15 gün müddətində "WhatsApp"dan pulsuz yazışma imkanı ilə yanaşı, 1.2 GB internet trafiki və 20 SMS təqdim edir.




Paketi aktivləşdirmək üçün sadəcə *777*720#Yes şifrəsini yığmaq kifayətdir.

Səfərə çıxmazdan öncə nar.az/senin-ucun/rouminq səhifəsinə daxil olaraq öz ehtiyaclarınıza uyğun ən sərfəli paketi seçin və nömrənizdə rouminqin aktiv olub-olmadığını yoxlayın. Rouminq xidmətini aktiv etmək üçün: *777#100#Yes

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq, sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 635
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

“ANBARLARDA YUMURTA EHTİYATI KİFAYƏT QƏDƏRDİR, BAHALAŞMA OLMAYACAQ”

# YUMURTAMIZIN ÜSTÜNDƏ DAVADIR

**Azərbaycan artıq ABŞ-yə yumurta ixracına başlayıb. Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Qətər, Küveyt də ixrac siyahımızdadır. Belçika və İsrail də yaxın vaxtlarda bu siyahıya əlavə edilə bilər.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanın kənd təsərrüfatı sektoru yeni bir uğura imza atıb. Artıq ölkəmiz ABŞ-yə müntəzəm süfrə yumurtası ixracına başlayır. ABŞ-də quş qripi səbəbindən yaranan yumurta qıtlığı və qiymət artımı fonunda Azərbaycanın aparıcı quşçuluq təsərrüfatlarından biri beynəlxalq standartlara uyğun sertifikatlaşmadan keçərək bu böyük bazara daxil olmağa hazırdır. Bu addım yerli istehsalçılar üçün yeni imkanlar açır. Bəs ixrac perspektivlərimizin artırılması daxili bazara hər hansı mənfi təsir göstərə bilərmi? Bu sahədə gələcək imkanlarımız necə görünür?

**“ARTIQ İXRAC REALLAŞIB”**

Azərbaycan Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası İctimai Birliyinin sədri Mürvət Həsənlinin sözlərinə görə, bu sahədə istehsalımız tələbatımızı ödəməyə imkan verir. Məhz bunun sayəsində ixrac potensialımızı da genişləndirə bilirik: “Bu gün ölkədə 5,5-6 milyon ədəd arasında süfrə yumurtası istehsal olunur. Gündəlik yumurtaya olan tələbatımız isə dörd milyona yaxındır. İstehsal olunan yumurtanın 1,5 milyonu ixrac edilir. Hazırda yumurta ixrac etdiyimiz ölkələr əsasən Yaxın Şərq ölkələridir. Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Qətər, Küveyt bu siyahıya daxildir. Bir müddət Rusiyaya da yumurta ixracımız olmuşdu. Lakin hazırda dayandırılıb”.

Sədr qeyd etdi ki, hazırda ABŞ-də toyuqlarda virus yayılıb. Bu səbəbdən ölkədə yumurta ilə bağlı qıtlıq müşahidə olunur: “Bu yaxınlarda ABŞ iş adamları bizə müraciət etdilər. Yumurtaların keyfiyyəti, toyuqların bəslənməsi və sair ilə maraqlandılar. Quşçuluq şirkətimiz yoxlamalardan sonra ABŞ-nin federal sertifikatına layiq görüldü. Məndə olan məlumata görə, 11 mart tarixində ABŞ-yə ilk yumurta ixracımız artıq reallaşıb. Bizdən 70-80 konteyner yumurta aldılar. Təxmini bir ay üçün 21 milyon yumurta ixrac olunacaq. Bu proses minimum 6-7 aydan bir ilə qədər davam edəcək. Amma fikrimcə, bu bazar Yaxın Şərq ölkələri kimi daimi olmayacaq”.

**“ANBARLARDA YUMURTA EHTİYATIMIZ KİFAYƏT QƏDƏRDİR”**

M.Həsənli bildirdi ki, birlik olaraq bu yeniliyin daxili bazara hər hansı təsir etməməsi üçün maksimum şəkildə çalışırlar: “İxracın daxili yumurta bazarımıza heç bir əks təsiri yoxdur. Çünki anbarlarda yumurta ehtiyatımız kifayət qədərdir. İstehsalın da yüksək olduğunu nəzərə alsaq, heç bir narahatlığın olmayacağını demək mümkündür. İxrac etdiyimiz ölkələrə də kifayət qədər yumurta göndərə bilirik. Qiymət artımı olsaydı, Novruz bayramının təsiri ilə olardı. Amma çalışdıq ki, buna da şərait yaratmayaq. Yumurtaların fabrikdən çıxış qiymətləri 11-12 qəpik təşkil edir. Marketlərə də həmin qiymətə satılır. Lakin ondan sonrakı qiymət prosesi artıq marketlər tərəfindən tənzimlənir”.




## “TEZLİKLƏ YENİLİKLƏRİN ŞAHİDİ OLACAĞIQ”

Sədrin sözlərinə görə, tezliklə həm ixrac, həm istehsal sahəsində yeniliklərin şahidi olacağıq: “Yaxın gələcəkdə digər ölkələrə də ixrac düşünürük. Məsələn, Belçika və İsrailə. Hazırda bu sahədə sertifikatlaşma mərhələsindəyik. Həmçinin Cənubi Afrika, Somalidən də süfrə yumurtamızla maraqlanırlar. Yəqin ki, qısa zamanda bu ölkələrə də məhsullarımızı ixrac edəcəyik. Gələcəkdə istehsal gücümüz də artacaq. Belə ki, hazırda bu rəqəm 5-6 milyondursa, onu 8-10 milyon etməyə çalışacağıq. Çünki bu sahəyə xeyli dəstək göstərilir”.

**“TƏLƏBAT YERLİ İSTEHSAL HESABINA ÖDƏNİLİR”**

İqtisadçı Rauf Qarayev də düşünür ki, istehsalımız və tələbatımız bir-birinə tam uyğun gəlir: “2023-cü ildə Azərbaycanda ümumilikdə 2,2 milyard yumurta istehsal edilib. Ən çox yumurta istehsalı Hacıqabul rayonunun payına düşüb (414,4 milyon ədəd). Xızı rayonu 407,8 milyon ədəd göstərici ilə ikinci olub. Sabirabad rayonunda isə 215,8 milyon yumurta istehsal edilib. İşğaldan azad edilmiş Xocalı rayonu sonuncu pillədə olsa da, bu rayon üzrə göstərici 50 min ədəd təşkil edib. Yumurtlayan toyuqların orta illik yumurta verimi 2022-ci ildə 235 ədəd, 2023-cü ildə 242 ədəd olub. Adambaşına 2023-cü ildə 215 yumurta düşüb, 2022-ci ildə bu göstərici 200 ədəd olub. İstehlakda adambaşına düşən yumurta isə 2022-ci ildə 179, 2023-cü ildə 189 ədəd olub”.

İqtisadçı bildirdi ki, quş yemi artıq neçə ildir ki, ƏDV-dən azaddır. Bundan əlavə, quşçuluq sənayesində istifadə olunan bir sıra mal və materiallara da dövlət güzəşt tətbiq edir: “Məhz bunun nəticəsidir ki, ölkəmizin yumurtaya olan tələbatı 100 faiz yerli istehsal hesabına ödənilir”.



## “GƏRƏK TƏLƏB TƏKLİFİ ÜSTƏLƏSİN Kİ...”

R.Qarayevin sözlərinə görə, istehsalımız tələbatımızı kifayət qədər qarşılaya bildiyi üçün indiki dövrdə qıtlıqdan söhbət gedə bilməz: “Hazırda yumurta istehsalı daxili bazarın tələbini ödəyir. Qıtlığın olması üçün gərək tələb təklifi üstələsin. Bu o vaxt baş verər ki, sahibkara yumurta istehsalı baha başa gələr. Sahibkar bu halda qiyməti artırmalıdır və ya məhsulu üçün yeni bazar axtarmalıdır. Hazırda belə bir vəziyyət mövcud deyil”.

Ekspert bu sahədəki çatışmazlıqlardan da bəhs etdi: “Yumurta və quş əti istehsalı əsasən müəssisələrin deyil, fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatçılarının üzərinə düşür. Çətin məsələ müəssisələrin rentabelliyi ilə bağlıdır”.

# KAĞIZ SƏNƏD ERASI BAŞA ÇATIR

Hazırda yeni sistem vasitəsilə hər ay bir milyondan çox kağız sənədin istifadəsinə qənaət edilir ki, bu da ildə təxminən 2000-dən çox ağacın kəsilməsinin qarşısını alır. Bununla yanaşı, Milli Məlumat Mübadiləsi Sistemi dövlət orqanları arasında operativ və etibarlı məlumat mübadiləsini təmin edir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



**Bu proses nəticəsində ildə 10 mindən çox ağacın kəsilməsinin qarşısı alınır**

Azərbaycanda kağız daşıyıcılardan tamamilə imtina olunacaq, rəqəmsal hökumətə keçid baş verəcək. Bu, "Rəqəmsal İnkişaf Konsepsiyası"nda öz əksini tapıb. Sənəddə deyilir ki, Konsepsiya rəqəmsal texnologiyaların tətbiqi yolu ilə dövlət idarəetməsinin təkmilləşdirilməsini, iqtisadi inkişafın sürətləndirilməsini, vətəndaşların həyat keyfiyyətinin artırılmasını hədəfləyir. Bəs nəzərdə tutulan yeniliklər bizə nə verəcək? Vətəndaşların bu sistemə öyrəşməsi üçün işlər görülürmü?

### HƏR AY BİR MİLYONDAN ÇOX KAĞIZA QƏNAƏT EDİLİR

Prosesdə aparıcı qurumlardan biri kimi çıxış edən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyindən (İRİA) "Kaspi" qəzetinə verilən məlumata görə, qurum tərəfindən həyata keçirilən ən mühüm təşəbbüslərdən biri Rəqəmsal Sənəd Dövriyyəsi (RSD) altsistemidir: "Bu sistem sayəsində dövlət qurumları arasında sənəd mübadiləsi tam rəqəmsal formada və təhlükəsiz şəkildə aparılır. Hazırda 2200-dən çox dövlət qurumu və alt strukturlar RSD altsisteminə qoşulub və bu sistem vasitəsilə hər ay bir milyondan çox kağız sənədin istifadəsinə qənaət edilir ki, bu da ildə təxminən 2000-dən çox ağacın kəsilməsinin qarşısını alır. Bununla yanaşı, İRİA tərəfindən təqdim edilən "digital.bridge" - Milli Məlumat Mübadiləsi Sistemi dövlət orqanları arasında operativ və etibarlı məlumat mübadiləsini təmin edir. Artıq vətəndaşlar dövlət qurumlarına bir çox sənədləri təqdim etmək məcburiyyətində deyil, çünki həmin məlumatlar birbaşa "digital.bridge" üzərindən əldə edilə bilir. Bu yenilik təkcə vətəndaşlara rahatlıq yaratmır, həm də dövlət xidmətlərinin sürətini artırır və bürokratik maneələri aradan qaldırır. Sistem vasitəsilə həyata keçirilən məlumat mübadilələrinin sayı bir milyardı ötüb və bu proses nəticəsində ildə 10 mindən çox ağacın kəsilməsinin qarşısı alınır".

## "23 NÖV RƏQƏMSAL SƏNƏDİN HÜQUQİ QÜVVƏSİ TƏMİN EDİLİB"

Qurumdan bildirilir ki, 2024-cü ildə yenilənmiş "mygov" rəqəmsal hökumət platforması çərçivəsində də mühüm addımlar atılıb: "Artıq vətəndaşlara həyat hadisələri üzrə rəqəmsal hökumət xidmətləri təqdim olunur. Məsələn, ailə qurmaq, valideyn olmaq, ailə üzvünün vəfatı kimi həyat hadisələri ilə bağlı bütün dövlət xidmətləri inteqrasiya olunub və elektron qaydada əlçatan edilib. Bununla yanaşı, vətəndaşlara aid bir sıra sənəd və məlumatlar da rəqəmsal formada təqdim edilir. Hazırda "mygov" platformasında 40-dan çox məlumat və rəqəmsal sənəd mövcuddur. Ölkə prezidentinin 16 iyul 2024-cü il tarixli Fərmanına əsasən, şəxsiyyət vəsiqəsi, doğum, ölüm və nikah haqqında şəhadətnamələrin rəqəmsal versiyaları artıq fiziki versiyaları ilə bərabər hüquqi qüvvəyə malikdir. Bu o deməkdir ki, vətəndaşlar artıq fiziki sənədləri təqdim etmədən, "mygov" üzərindən rəqəmsal şəxsiyyət vəsiqələrini və digər sənədlərini istənilən dövlət və özəl quruma təqdim edə bilərlər. Bundan əlavə, 2025-ci ildə qəbul edilən qanun dəyişiklikləri ilə daha 23 növ rəqəmsal sənədin hüquqi qüvvəsi təmin edilib. Bu isə ölkədə kağız sənədlərdən istifadənin daha da azalmasına və rəqəmsal hökumət konsepsiyasının genişlənməsinə töhfə verir".

"Vətəndaşlar buna hazırdırmı" sualına gəldikdə isə, İRİA-dan bildirilir ki, vətəndaşların rəqəmsal hökumət həllərinə daha rahat və səmərəli şəkildə inteqrasiya olunması üçün müxtəlif istiqamətlərdə işlər görülür: "İlk növbədə, dövlət xidmətlərinin əlçatanlığını artırmaq məqsədilə istifadəçi dostu interfeyslərə malik rəqəmsal hökumət xidmətləri, platforması təqdim olunur. Bu, vətəndaşların mürəkkəb texniki biliklərə ehtiyac duymadan rəqəmsal xidmətlərdən asanlıqla yararlanmasına imkan verir. Bununla yanaşı, mütəmadi maarifləndirmə kampaniyaları təşkil edilir, xüsusi təlim proqramları, seminarlar həyata keçirilir".

Qurumun məlumatına görə, Azərbaycanın rəqəmsal hökumətə keçid istiqamətində həyata keçirdiyi tədbirlər gələcək üçün də böyük əhəmiyyət kəsb edir: "Əsas hədəf rəqəmsallaşma vasitəsilə cəmiyyət, biznes və dövlət arasında daha dərin əlaqə qurmaq, ölkədə rəqəmsal mədəniyyəti formalaşdırmaq və hər bir şəxsin texnologiyalardan faydalanmasını təmin etməkdir. Bu yanaşma, sadəcə idarəetmədə çeviklik deyil, həm də yeni nəsil texnologiyalarla Azərbaycanın beynəlxalq rəqəmsal ekosistemə inteqrasiyasını sürətləndirmək məqsədini daşıyır".


Elvin Abbasov
Foto: Sabir Məmmədov - Global Photostock

## "BU TRANSFORMASIYA CİDDİ İSLAHATLARA YOL AÇACAQ"

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının sədri Elvin Abbasov deyir ki, bu transformasiya ciddi islahatlara yol açacaq: "Bu keçid idarəetmədə çeviklik, şəffaflıq və operativlik baxımından mühüm üstünlüklər vəd edir. Kağız daşıyıcılar vasitəsilə aparılan fiziki proseslərin azalması, dövlət xidmətlərinin elektron platformalar üzərindən göstərilməsi bürokratik maneələri aradan qaldıracaq, nəzarət mexanizmlərini avtomatlaşdıracaq, ekoloji baxımdan da müsbət nəticələr doğuracaq. Eyni zamanda, rəqəmsal idarəetmə böyük həcmli məlumatların daha effektiv təhlilinə, süni intellekt və analitika vasitəsilə daha optimal qərarların qəbuluna imkan verəcək".

### KİBERTƏHLÜKƏSİZLİK DƏ DİQQƏT MƏRKƏZİNDƏ SAXLANMALIDIR

Mütəxəssisin sözlərinə görə, rəqəmsal hökumətə keçid təkcə texniki yeniliklərdən ibarət deyil: "Vətəndaşların yeni sistemə uyğunlaşması üçün geniş maarifləndirmə və təlim proqramlarının həyata keçirilməsi vacibdir. Eyni zamanda, kibertəhlükəsizlik məsələləri də diqqət mərkəzində saxlanılmalıdır ki, rəqəmsal ekosistem mümkün risklərdən qorunsun. Bundan əlavə, bu transformasiya qanunvericiliyin də dinamik inkişafını tələb edir. Rəqəmsal idarəetməyə keçid zamanı hüquqi bazanın operativ yenilənməsi, elektron imza, rəqəmsal identifikasiya, məlumat təhlükəsizliyi və süni intellektin tətbiqi ilə bağlı yeni hüquqi çərçivələrin formalaşdırılması zəruridir. Ümumilikdə, kağızdan imtina və rəqəmsal texnologiyalara əsaslanan dövlət idarəçiliyi Azərbaycanın innovativ gələcəyinə doğru atdığı ən vacib addımlardan biridir. Bu prosesin uğurlu olması üçün dövlət, biznes və vətəndaş cəmiyyəti birlikdə fəaliyyət göstərməlidir".

# MAŞIN BAZARINDA MÖVQE DƏYİŞİKLİYİ



Maşın bazarında ənənəvi tendensiya dəyişir. Gürcüstandan gətirilən "ikinci əl" maşınlar hakim mövqelərini sürətli şəkildə itirirlər. Ekspertlər bazardakı mövqe dəyişikliyinin mənfi və müsbət tərəflərini açıqlayırlar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Ötən il Gürcüstandan Azərbaycana 290 milyon ABŞ dolları dəyərində 12 min 849 ədəd avtomobil ixrac edilib. Bu, 2023-cü ilin göstəricisindən dəyər ifadəsində 34 faiz, kəmiyyət olaraq 43 faiz azdır. Beləliklə, Azərbaycan Gürcüstanın avtomobil ixrac etdiyi ölkələr sırasında üçüncü yerdə qərarlaşıb. Statistikadan da göründüyü kimi, əgər əvvəllər ölkəmizə daha çox Gürcüstan vasitəsilə ikinci əl maşınlar gətirilirdisə, indi vəziyyət dəyişib. Bəs bu dəyişikliyin hansı müsbət və mənfi təsirləri var?

### "HƏM KOMFORTLU, HƏM DƏ UCUZ"

Nəqliyyat eksperti Yasin Mustafayevin sözlərinə görə, insanların Gürcüstandan idxal edilən avtomobillərdən imtina etməsi üçün əsaslı səbəblər var: "Elektrikli avtomobillərə keçid dövrün tələbidir. Əvvəl Avropadan, ABŞ-dan gətirilən avtomobillərə tələbat var idi. Onlar da Gürcüstan üzərindən gətirilirdi. İndi avtomobillərin buraxılış ilinə qoyulan məhdudiyyətlər, həm də son dövrlər Çin avtomobillərinin daha cəlbedici olması səbəbindən əsas ağırlıq Çin və Koreya avtomobillərinə keçib. Gürcüstan bazarı əhəmiyyətini itirməkdə davam edir. Avropa və ABŞ maşınları Çin avtomobilləri ilə rəqabətə davam gətirə bilməyəcək. Çünki həmin ölkələrdə avtomobil istehsalçıları keyfiyyəti, modeli yenilədikcə, qiyməti də artırırlar. Amma Çin maşınlarında belə deyil. Onlarda qarşıya qoyduqları prioritet keyfiyyəti, komfortu artırmaq, qiyməti isə mümkün qədər münasib saxlamaqdır. Belə olan halda insanlar Çin avtomobillərinə yönəlir. Əvvəllər biz Gürcüstandan gələn avtomobilləri münasib olduğu üçün seçirdiksə, indi Çin maşınlarını da münasib qiymətə gətirə bilirik".

### EHTİYAT HİSSƏLƏRİ PROBLEMİ

Çin və Koreyadan gətirilən avtomobillərə maraq artsa da, vətəndaşlar həmin avtomobillərin ehtiyat hissələrinin tapılmamasından şikayətçidirlər. Ekspert düşünür ki, bu məsələ də tezliklə öz həllini tapacaq: "Hazırda Çindən gələn avtomobillərin ehtiyat hissələri ilə bağlı müəyyən çətinliklər var. Bunun da səbəbi hələ bazara yeni daxil olmalarıdır. Müəyyən vaxt keçdikdən sonra onların da ehtiyat hissələri ölkəmizə gətiriləcək. Çin avtomobillərinin modelləri çox tez-tez dəyişir. Yeni modellər çıxdıqca, köhnələrinin istehsalı dayanır. Bu da ehtiyat hissələrinin gətirilməsində müəyyən çətinliklər yaradır. Amma hibrid və elektromobillərin köhnə maşınlar kimi tez-tez təmirə ehtiyacı olmur. Hələ ki, yenidirlər, ehtiyat hissələri daxili yanma mühərriklilərdən daha azdır. Bu da o avtomobilləri daha cəlbedici edir".



## KÖHNƏ AVTOMOBİL QİYMƏTİNƏ YENİSİNİ ALIRLAR

Avtomobil Dilerləri Assosiasiyasının (AADA) İdarə Heyətinin sədri, avtomobil bazarı üzrə ekspert Eyyub Əliyevin sözlərinə görə, gələcəkdə Gürcüstandan maşın idxalı dayandırıla da bilər: "Gürcüstandan köhnə maşınları insanlar özləri alıb gətirirdilər. Hazırda sərhəd bağlıdır. Artıq oradan avtomobil gətirmək həm daha çox xərc tələb edir, həm də vaxt itkisidir. Avtomobil almaq istəyən vətəndaş da hesablayır ki, elə üzərinə bir az da məbləğ qoysa, yeni avtomobil ala bilər. Ölkəmizdə avtomobil sahəsində böyük islahatlar gedir. Yeni elektrikli və hibrid avtomobillər vergi və ƏDV-dən azaddır. İnsanlar da düşünürlər ki, yeni maşınlar bu qədər sərfəlidirsə, niyə köhnə maşın gətirim?"



Yasin Mustafayev

E.Əliyevin sözlərinə görə, artıq bir müddətdir yaşı 10 ildən artıq olan avtomobillərin ölkəyə gətirilməsinə qadağa qoyulub. Bu amil də Gürcüstandan gələn avtomobillərin sayını azaldır. Gələcəkdə bu müddət yaşı beş ilə qədər olan avtomobillərə endirilsə, həmin Gürcüstandan gələn avtomobillərdən tamamilə imtina etməli olacağıq.

E.Əliyevin fikrincə, işlənmiş, yararsız avtomobillərdənsə, yerli və yeni maşınlar daha sərfəlidir: "Gürcüstana əsasən Avropa, ABŞ-dən köhnə, yararsız avtomobillər gətirilir, orada emal edilir, sonra isə müxtəlif ölkələrə satışa çıxarılır. Gürcüstandan gətirilən avtomobillər əksər hallarda problemli olub. Hətta dəfələrlə bu avtomobillərin qəza vaxtı ikiyə bölünməsi halları ilə də qarşılaşa bilirik. Baxdıqda görünür ki, bir neçə avtomobil hissələrindən ərsəyə gəlmiş maşınlardır. Tövsiyə edirəm ki, insanlar köhnə yox, yeni avtomobil alsınlar. Yerli, yeni avtomobil almaq daha güvənli və keyfiyyətlidir".

Ekspert deyir ki, artıq insanlar yerli maşın almağı üstün tuturlar: "Əvvəl yerli istehsal yalnız bir marka üzrə olurdu. Bu səbəbdən də insanlar almırdı. Amma artıq müxtəlif marka və modellər mövcuddur. Artıq insanlar zövqlərinə və büdcələrinə uyğun modelləri seçə bilirlər".



Eyyub Əliyev

## "QEYRİ-RƏSMİ SATICILARDAN UZAQ DURUN"

E.Əliyev Koreya və Çindən gələn avtomobillərə artan marağın doğurduğu mənfi tendensiyalara da toxundu: "Onların Azərbaycanda 20-dən çox rəsmi distributoru var. Müxtəlif qiymətlərdə Çin avtomobilləri mövcuddur. Lakin Çin avtomobilləri qeyri-rəsmi şəkildə də idxal edilir. Hətta qeyri-rəsmi olduğu üçün insanları aldada da bilirlər. Bəzən sifariş olunan maşınlar gəlmir".

Müsahibimiz məsləhət gördü ki, insanlar Çin avtomobilləri alarkən qeyri-rəsmi idxal edilən avtomobillərdən uzaq dursunlar: "Çin avtomobilləri rəsmi servisdə 30 min manatdırsa, qeyri-rəsmi 25-26 minədir. Ucuz olsa da, sonradan problemlər yaranır. Çinin daxili bazarı üçün olan avtomobillərdir. Onların sonradan texniki, zəmanət tərəfləri var. Qeyri-rəsmi idxal nə zəmanət verir, nə də ehtiyat hissələrini tapmaq olur".

# XATİRƏLƏRİNİ BƏDƏNLƏRİNƏ DÖYDÜRƏNLƏR

Bu gün əvvəlki illərlə müqayisədə Azərbaycan gənclərinin döyməyə marağı yüksəkdir. Zamanla zövqlər də dəyişib. İndi insanlar daha anlamlı mövzularla bağlı döymə ustalarına yaxınlaşırlar.



SEVİNC ABBASOVA

Azərbaycan cəmiyyəti uzun illər "döyməli" insanlara yaxşı münasibət bəsləməyib. Onları ya oğru dünyasının, ya da qaranlıq işlərin adamları sayıblar. Ona görə bəziləri döymə etdirsələr də, onu gizlətməyə çalışıblar. Lakin zaman ötdükcə bu stereotiplər aradan qalxmağa başlayıb. İndi şəhərin küçələrində qolunda, boynunda, əlinin üstündə müxtəlif məzmunlu döymələr olanlar sərbəst şəkildə gəzib-dolaşırlar. Onların çoxu da gənclərdir.

Bəs, görəsən, gənclərin döymə zövqü necə dəyişib? On il əvvəllə müqayisədə hansısa dəyişiklik varmı? Ən çox hansı döymələr istənilir? Tələbat və qiymətlər necədir?

### HƏLƏ DƏ DÖYMƏYƏ PİS BAXANLAR VAR

19 yaşlı Aygün tələbədir. O, qolunun görünən yerinə ay və günəş rəsmi döydürüb. Xalq artisti Aygün Kazımovanın pərəstişkarı olan gənc qız hələ orta məktəb illərindən elə onun qolundakı döymədən çəkdirmək arzusunda olub. Amma ailəsi buna razılıq verməyib. Arzusunu universitetə qəbul olduqdan sonra reallaşdırıb. Hətta qrup yoldaşlarından bir neçə qız da ona qoşularaq bədənlərinin müxtəlif yerlərinə döymə etdiriblər.

Deyir ki, tələbə olsa da, universitetdə buna görə kimdənsə irad eşitməyib: "İndiyədək hansısa iradla qarşılaşmamışam. Tatu artıq gənclər arasında trend halına gəlib. Çoxları bu trendə qoşulub. Lakin bəzi insanlar hələ də buna yaxşı baxmırlar. Tatu etdirən şəxslərlə bağlı pis fikirdədirlər. Amma burada pis heç nə yoxdur. Bu da bir növ sənət əsəridir. Başqa məna axtarmaq doğru deyil".

### GƏNCLƏRİN DÖYMƏYƏ MARAĞI YÜKSƏKDİR

Bu işin bilicilərindən olan Çingiz Eyvazov 1990-cı illərdən döymə sənəti ilə məşğuldur. O, 30 ilə yaxın Türkiyədə fəaliyyət göstərib. Müştəriləri arasında Cem Yılmaz, Şafak Sezer kimi məşhurlar olub. Hazırda Bakının mərkəzində yerləşən döymə studiyasında fəaliyyətini davam etdirir: "Uşaqlıqdan şəkillərə, tatuya marağım var idi. Türkiyədə görürdüm ki, rokmenlərin əllərində müxtəlif tatular var. Amma baxırdım ki, bəziləri yaxşı vurulmayıb. Əlimdəki tatuları dostlar görüb, çox bəyənirdilər".

Onun sözlərinə görə, bu gün əvvəlki illərlə müqayisədə Azərbaycan gənclərinin döyməyə marağı yüksəkdir: "Demək olar ki, zamanla zövqlər də dəyişib. Məsələn, əvvəllər mənə çoxu hazır şəkillə müraciət edirdi. Amma gətirdiyi şəklin anlamını bilmirdi. Deyirdi ki, sadəcə şəkil xoşuma gəldiyindən onu döymə etdirmək istəyirəm. İndi insanlar daha anlamlı mövzularla bağlı yaxınlaşırlar. Adam var, gəlir deyir ki heç kimdə olmayan tatu istəyir, öz düşüncə və fikirlərini danışmağa başlayır. Xüsusilə daxillərində yığılıb qalanları, xatirələrini bədənlərinə yazdırmaq istəyirlər. Yəni, işə sənət kimi baxırlar. Baxırsan, elə şəkil və ya düşüncə ilə gəlirlər ki, həqiqətən də çox anlamlı olur. Biz də oturub onların düşüncələri əsasında mövzunu işləyirik. Bunun üçün insanın psixoloji durumunu müəyyən etməyi, onu dinləməyi və duymağı bacarmaq lazımdır".







### ŞİR, CANAVAR, ƏJDAHA İSTƏYƏNLƏR AZALIB

Usta bildirir ki, Azərbaycanda döyməyə əsasən kişilər meyillidirlər: "Son illər döymə etdirən xanımların da sayı artıb. Amma kişilər yenə də üstünlük təşkil edirlər. Bir vaxtlar şir, əjdaha və canavar şəkillərinə tələbat çox idi. Bu döyməni də əsasən kişilər istəyirdi. İndi buna tələbat nisbətən azalıb".

## QİYMƏT 50 MANATDAN BAŞLAYIR

Qiymətə gəlincə, Çingiz usta bildirir ki, qiymət şəklin çətinliyinə, ayrıntılarına, incəliyinə görə dəyişir: "Burada boya da rol oynayır. Portretlər ən bahalı iş sayılır. Döymə böyüdükcə qiymət artır. Xaricdə isə qiymətlər sərf olunan vaxta görə tənzimlənir. Elə döymə ola bilər ki, sən onu 4-5 saata qurtara bilərsən. Müştəriyə deyirsən ki, mən bilmirəm, nə zaman qurtaracaq. Çünki müştəri onsuz da həmin işin qiymətini təxmini olaraq aşağı-yuxarı bilir. Rəsmi sevib, bilir ki, çətindir. Tatu var onu 50 manata edərsən, tatu da olar ki, 2000-2500 manata. Peşəkar döyməçilərin maşınkanı açılış qiyməti standart olaraq 50 manatdır. Hansı ki, bu qiymətə bir dənə nöqtə də etdirə bilərsiniz, imza da, 7-8 santimetrlik yazı da. Necə ki, adətən xanımlar son zamanlar yanaqlarına xal etdirirlər".



Çingiz Eyvazov

### "USTANIN ƏLİ YÜNGÜLDÜRSƏ..."

Kiçik və böyük döymələr üçün bədənə nə qədər iynənin yeridildiyinə gəlincə, usta deyir ki, kiçik döyməni üçlü və beşli iynələrlə bitirmək mümkündür: "Böyük döymələr üçün daha çox iynə lazım olur. Belə ki, üçlü və beşli iynələrlə əvvəlcə xətlər vurulur. Daha sonra fırça iynələrlə iş davam etdirilir. Böyük döymələrdə əsasən 25-li fırça iynələr açılır. Sonra 15-li, 13-lü və s. fırça iynələrdən istifadə edilir. Ümumiyyətlə, döymə müəyyən qədər ağrılı bir prosedurdur. Amma ustadan da çox şey asılıdır. Əgər ustanın əli yüngüldürsə, proses də asan keçir".

## DÜNYANIN ƏN DƏLİ İŞİ

Həmsöhbətimiz deyir ki, döymə etmək arzusunda olanlar mütləq ustanın peşəkarlığına diqqət yetirməlidirlər: "İnsan meyil etdiyi sənətin dərinliklərini, incəliklərini ətraflı öyrənməlidir. Hər hansı rəsm çəkildiyi zaman incəliklərə fikir verməlidir. Bizim sahədə də qeyri-peşəkarlar var. Ona görə döymə etdirmək istəyən şəxs ustanın peşəkar olub-olmadığına diqqət yetirməlidir. Bu sənət dünyanın ən dəli işidir. Çünki tərpənən bir bədəndə əsər yaradırsan, insan dərisi üzərində işləyirsən. Bunun geri dönüşü yoxdur. Alınmadı, dayan silim, yenidən başlayım, - belə şey yoxdur".

O, həmçinin döymənin steril şəraitdə vurulmasının vacibliyini də vurğulayır: "Müştəri bütün alətlərlə tanış edilməli, iynələr göstərilməlidir. İstifadə edilən ləvazimatların hamısı gərək bir dəfə işlədilsin. Rənglər, iynələr və s. ikinci dəfə istifadə edilə bilməz".

# İKİ OKEANIN YUDUĞU SAHİLLƏRDƏKİ NAĞIL

Möcüzələr adası kimi təqdim edilən Bali geniş düyü terrasları, kokos xurma sahələri və kofe plantasiyaları ilə məşhurdur. Səyahət həvəskarları Bali nağılını öz gözləri ilə görmək üçün uzun məsafələri qət etməkdən çəkinmirlər.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Orada möcüzələr var, orada iblislər dolaşır, budaqlarda su pərisi oturur... Orada, naməlum yollarda misli görünməmiş heyvanların izləri var. Orada Tanrılar məskən salıb... Dünyanın nüfuzlu adamları orada hovuzları olan daxmalar tikib xoşbəxt yaşayırlar..." Bali haqqında izlədiyim bir səyahət filmindən yaddaşımda ilişib qalan bu təəssüratları amerikalı yazıçı Elizabet Gilbertin qələmə aldığı və öz həyat hekayəsi əsasında çəkilən "Ye, dua et və sev" filmi daha da gücləndirdi. Həyatının acı boşanmasından sonra Balidə sevdiyi "şahzadəsi"ni tapan yazıçı adanın şaman falçılarının bütün xəstəlikləri sağaltdığına və xoşbəxt gələcək xəyal etdiklərinə, mistizmi ilə sirli bir ada olduğuna, nəhayət Baliyə səfər edənlərin tək qayıtmadığına, adanın yer üzündəki cənnət və tanrıların sakit məskəni olduğuna təkcə özünü deyil, bütün dünyanı inandıra bildi...

Dünyanın səyahət həvəskarları bir gün Bali nağılını öz gözləri ilə görmək üçün uzun məsafələri qət edərək adaya uçurlar.... Onları qarşıda iki okeanın - Hind və Sakit okeanın yuduğu sahillər, ağ qumlu çimərliklər, yamyaşıl meşələr, ekzotik flora və faunaya malik təbii parklar, sönmüş vulkanlar, gurultulu şəlalələr və müalicəvi bulaqlar gözləyir. Balililər mehriban insanlardır, onlar adanın qonaqlarına həmişə səmimi yanaşırlar. Burada hər şey qeyri-adidir. Axı yerlilər 21-ci əsrdə yaşamırlar: adadakı insanlar hələ də bir dövrü 210 günə bərabər olan qədim "Pavkun" təqviminə görə yaşayırlar. Burada onlar ağ və qara sehrə və dünyanın gözəl və ahəngdar olduğuna inanırlar...

### QLOBAL SİYASİ DƏYİŞİKLİKLƏR NƏTİCƏSİNDƏ YARANAN AXIN

Balidəki kütləvi turizm sənayesi qlobal siyasi dəyişikliklər nəticəsində yaranıb. İndoneziya Prezidenti Suharto prezident olan kimi Dünya Bankının dəstəyini alıb. 1969-cu ildən Balidə ilk beşulduzlu hotellər tikilməyə başlanıb, hava limanı genişləndirilib, dünya turizmi adanın şərq və qərb sahillərinə yönəlib. Adanın mədəniyyət mərkəzi - məşhur filmin çəkildiyi Ubud kəndi 2006-cı ildə əsl qlobal ulduza çevrilib. Amerikalı yazıçı Elizabet Gilbertin kitabı işıq üzü görəndən sonra adanın sorağı dünyaya yayılıb. Bu gün Bali dünyada görülməli on adadan, ən yaxşı on tropik kurortdan biri olmaqla, İndoneziyanın inkişaf edən turizm sənayesinin əsas mərkəzinə çevrilib. 300 min əhalisi olan paytaxt Denpasar, gənclərin gecə həyatının mərkəzi olan Kuta, Culiya Robertsin oynadığı məşhur filmlə məşhurlaşan Ubud kəndi, çimərlikləri ilə məşhur Seminyak hər il milyonlarla qonaq qəbul edir. Bali okeanlararası təkrar səfərlərin reytinqinə başçılıq edir.

Adada çimərlik mövsümü aprel-oktyabr ayları aralığına təsadüf edir. Fevral-mart aylarında havanın temperaturu 26-30 arasında dəyişsə də, yerlilər çimməyi məsləhət görmürlər. Dəniz mövsümündə müxtəlif dəri xəstəliklərindən şikayətlənənlər çoxdur. Adanın həşərat və heyvanları da təhlükəlidir. Məsələn, çox turist adadakı məşhur Meymun cəngəlliyinə tura çıxmaqdan çəkinir: "Meymunlar insanların üzərinə cumur, əllərindəki əşyaları qapır, özlərini aqressiv aparırlar. Adanın heyvanat aləminin dilini yerli sakinlərdən yaxşı bilən yoxdur...", - deyə yerlilər etiraf edirlər.



## ADANIN BƏNZƏRSİZ MƏDƏNİ ƏNƏNƏLƏRİ

Bali inanclı yerdir və adanın bənzərsiz mədəni ənənələri var. Cənub-Şərqi Asiyada yeganə hindu icmasının evi, dəbdəbəli dini mərasimlər, rəngarəng bayramlar, sehrli gamelan musiqisi, inanılmaz rəqslər, teatr və fərqli memarlıq qədim və müasir Bali həyatının hər anını əks etdirir.

İndoneziyada ümumilikdə 20.000-dən çox qədim məbəd və saray var. Balidə də saysız-hesabsız hindu məbədi var. Onlardan bəziləri unikaldır. Suyun üzərində "uçan" Taman Ayun Kral Məbədi, kecak rəqsi ilə şouların keçirildiyi Uluvatu məbədi kompleksi adamı heyrətə salır. Burada tez-tez turistlər üçün açıq olan möhtəşəm məbəd festivalları keçirilir. Məbədlərə ancaq xüsusi geyimlə daxil olmaq mümkündür. Adada bir-birindən yüz metr məsafədə Çin məbədi, hindu məbədi və müsəlman məscidi yerləşir.

Balidə hər ailənin həyatında öz məbədi var. Onlar inanclarına görə, əzizlərini həyətlərində dəfn etdiklərindən məzarları üzərində məbəd ucaldır və daim ayinlər icra edirlər. Bali camaatı çox mehribandır. Həyatına daxil olduğum ailələrdən biri mehribanlıqla oturmağa dəvət edir və şükranlıq üçün hazırladığı yeməyi təklif edir. Balidə hər yerdə içərisinə müəyyən ərzaqlar qoyulmuş balaca qutulara rast gəlmək olur. Onlar bu yolla tanrıya pay göndərir və şükranlıq edirlər. Həmin qutuları tapdamaq günah sayılır.























### ADADA ÇÖRƏKDƏN DEMƏK OLAR Kİ, İSTİFADƏ OLUNMUR

Ada geniş düyü terrasları, kokos xurma sahələri və kofe plantasiyaları ilə məşhurdur. Turistlər üçün bu məkanlara ayrıca turlar təşkil edilir.

Dünyanın ən bahalı kofesi olan luvak Balidə istehsal olunur. Əsasən ixrac edilən bu kofenin kiloqramı min dollardan bahadır. Ayrıca Balidə ekzotik meyvələrin kofe və çayları hazırlanır.

Düyü terrasları isə ucsuz-bucaqsızdır. Düyü yerli sakinlərin əsas qidasıdır. Balidə yerli mətbəx üstünlük təşkil edir. "Biz gündə 3 dəfə düyüdən hazırlanan yemək yeyirik. Gün ərzində bir kiloqram düyü bişirilir. Bu, bizim gündəlik qidamızdır. Bizdə çörəkdən demək olar ki, istifadə olunmur",- deyə tur boyu bizi müşayiət edən yerli sürücü bildirir.

Adanın digər fərqli xüsusiyyəti bütün hotellərdə təklif olunan unikal və qədim reseptlərə əsaslanan müxtəlif növ masajlardır.

Bali sonsuz təəssüratların kaleydoskopu, hər zövq və yaş üçün unudulmaz bir tətildən ötrü tükənməz duyğular karnavalıdır.

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi İDMAN
20 MART CÜMƏ AXŞAMI 2025

Hazırda AL və KL-ə əsas dörd iddiaçı var. Onlardan "Zirə"nin durumu daha yaxşıdır. 52 xalı olan "qartallar" üçüncü pillədəki "Araz-Naxçıvan"ı beş xal üstələyir. Rəşad Sadıqovun komandası göstərdiyi oyunla da rəqiblərindən daha yaxşı görünür.

# AVROKUBOKLAR UĞRUNDA GƏRGİN MÜBARİZƏ

## AVROKUBOKLARA ƏSAS DÖRD İDDİAÇI



Futbol üzrə Azərbaycan Premyer Liqasında mövsümün sonuna doğru mübarizə gərginləşir. Xüsusilə avrokuboklara vəsiqə və elitada mövqeyini qorumaq yarışında komandalar bütün güclərini səfərbər ediblər. Nəyə görə çempionluq yox? Ona görə ki, artıq bu sualın cavabı böyük ölçüdə bəllidir.

### "QARABAĞ" ÇEMPİONLUĞA DOĞRU

Ağdam təmsilçisi ardıcıl dördüncü, 2013-cü ildən bəri 11-ci dəfə qızıl medalları qazanmağa çox yaxındır. 27 turda 64 xal toplayan Qurban Qurbanovun komandası turnir cədvəlinə inamla liderlik edir. "Atlılar" ən yaxın izləyicisi "Zirə"ni 12 xal üstələyir. Mövsümün sonuna doqquz tur qalıb və riyazi olaraq nəinki qəsəbə təmsilçisinin, hətta dördüncü pillədəki "Turan Tovuz"un da çempionluq şansı var. Lakin realist yanaşma "Qarabağ"ın belə bir üstünlüyü əldən verməyəcəyini deməyə əsas verir. Komanda həm heyətinə, həm göstərdiyi oyuna görə rəqiblərindən bir addım öndədir. İndi onlar üçün Premyer Liqadan çox ölkə kuboku oyunları prioritet hesab edilə bilər. Burada yarımfinala qədər irəliləyən kollektivin hədəfi növbəti "qızıl dubl"dur.

### GƏRGİN AVROKUBOK YARIŞI

Əsas mübarizə qitəmiqyaslı yarışlara - Avropa Liqası (AL) və Konfrans Liqasına (KL) vəsiqə qazanmaq uğrunda gedir. AL-ə vəsiqə ölkə kubokunun sahibinə veriləcək. Əgər çempion kuboku qazanarsa, bu turnirə Premyer Liqanın ikincisi gedəcək. Kubokun yarımfinalında "Qarabağ"-"Araz-Naxçıvan", "Neftçi"-"Sabah" duelləri var. İndiki halda ikinci pillədə qərarlaşan "Zirə" üçün "Qarabağ"ın kuboku qazanması AL-ə getmək üçün ən yaxşı variantdır. Kuboku nəzərə almasaq, çempionatın iki və üçüncü komandaları Konfrans Liqasında yarışacaq. Kuboku "Qarabağ" və ya hazırda üçüncü pillədə qərarlaşan "Araz-Naxçıvan" qazanacağı halda, çempionatın dördüncüsü də KL-də oynamaq hüququ qazanacaq.

Hazırda AL və KL-ə əsas dörd iddiaçı var. Onlardan "Zirə"nin durumu daha yaxşıdır. 52 xalı olan "qartallar" üçüncü pillədəki "Araz-Naxçıvan"ı beş xal üstələyir. Rəşad Sadıqovun komandası göstərdiyi oyunla da rəqiblərindən daha yaxşı görünür. İlk iki dövrəni yaxşı keçirən Muxtar Respublika təmsilçisi isə son zamanlar enişdədir. İkinci pilləni əldən verən Elmar Baxşıyevin komandası hazırkı mövqeyində də rahat deyil. Ardıcıl xal itkiləri dördüncü pillədəki "Turan Tovuz"un üçüncülük iddialarını artırıb. Düzdür, Kurban Berdiyevin komandası da qeyri-stabillikdən əziyyət çəkir. Lakin qərblilər 43 xal toplayıblar və üçüncülük şansları az deyil. "Sabah"ı da müəyyən qədər avrokubok mübarizə-sində hesab etmək olar. Komandanın 35 xalı var, ancaq dördüncü yerin qitəmiq-yaslı yarışlara getmək imkanı verə biləcəyini nəzərə alsaq, onlar da iddialarını davam etdirirlər. Lakin "Sabah" üçün prioritet ölkə kubokunu qazanmaqdır.

### "NEFTÇİ" ÜÇÜN MÖVSÜMÜ XİLAS ETMƏK ŞANSI

Premyer Liqada bu mövsümü də "Neftçi" üçün itirilmiş hesab etmək olar. Komandanın 32 xalı var və qalan doqquz turda ilk "dördlüy"ə girmək demək olar ki, mümkünsüzdür. Lakin komandanın mövsümü xilas etmək üçün variantı mövcuddur. "Ağ-qaralar" gözünü kuboka dikib. Yarımfinala qədər irəliləyə bilən Samir Abasovun komandasını tituldan cəmi üç oyun ayırır. Əldə ediləcək titul "Neftçi" camiəsində mövsümün uğursuzluğunu unutduracaq. "Şamaxı" və "Sumqayıt"ın mövsümün həlledici mərhələsində hər hansı ciddi sıxıntısı yoxdur. Düzdür, ötən mövsüm Konfrans Liqasında oynamaq hüququ qazanan "kimyaçılar" üçün mövsümün pis keçdiyini demək olar. 28 xalı olan komanda səkkizincidir və yalnız son iki qələbə ilə düşmə zonasından uzaqlaşıb. Lakin ümumi gedişatı nəzərə aldıqda, komanda hazırkı vəziyyətinə "şükür etməlidir". "Şamaxı"ya gəlincə, Premyer Liqaya bu mövsüm qayıdan "münəccimlər" elitada mövqeyini qorumaq məsələsini böyük ölçüdə həll edib. 28 xalla yeddinci olan komanda minimal tapşırığın öhdəsindən gəlib və artıq növbəti mövsümün planlarını cızır. "Şamaxı"nın baş məşqçisi Ayxan Abbasov Azərbaycan U-21 millisinin çalışdırıcısı təyin olunub. Məlumata görə, növbəti mövsümdən "Şamaxı" U-21 yığmasının bazası rolunu oynayacaq.

# BU İL PREMYER LİQANI KİM TƏRK EDƏCƏK?


Azər Bağırov

Növbəti mövsüm Premyer Liqada komanda sayı 12 olacaq. Bu qərardan sonra Premyer Liqanın sonuncusunun düşməyəcəyi gözlənilsə də, AFFA İcraiyyə Komitəsi idman prinsiplərinə riayət olunacağını və onuncu yeri tutan komandanın I Liqaya düşəcəyi barədə qərar qəbul etdi. Hazırda bu yerə iki namizəd var. "Səbail" 18 xalla sonuncudur. Doqquzuncu "Kəpəz"in 23 xalı var. Fərq böyük deyil və Bakı klubu vəziyyəti düzəldə bilər. Lakin komandada yaşananlar bunun çətin olduğunu demək üçün kifayətdir. Uğursuzluq zolağından çıxa bilməyən "dənizçilər"də baş məşqçi Cavid Hüseynov ötən həftə istefaya göndərildi. "Kəpəz" isə Azər Bağırovun rəhbərliyi altında elitada qalmaq üçün var gücünü ortaya qoyub.

### BOMBARDİRLİK YARIŞI

Qoleadorların yarışında da "Qarabağ"lı üstündür. Leandro Andrade 11 qolla rəqiblərini üstələyir. Lakin komandasından fərqli olaraq, onun liderliyi kövrəkdir. "Sabah"dan Jesse Sekidika 10 qolla Leandronu qarabaqara izləyir. "Araz-Naxçıvan"dan Felipe Santos, "Zirə"dən Davit Volkov doqquz dəfə fərqləniblər. "Sabah"lı Coy-Lens Mikels və "Zirə"li Salifu Suma isə səkkiz qolla növbəti sıralardadırlar.


Cavid Hüseynov